

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## COP 29 Konfransı Azərbaycan üçün tarixi simpoziumdur




9

SƏS
№ 147 (7072)
16 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# Müzəffər ölkənin qalib idmançıları!




2

**Dövlət başçısının Sərəncamları ilə Fransanın Paris şəhərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında uğur qazanmış idmançılarımız mükafatlandırılıb**

# Qərb "soyuq müharibə"yə qayıdıb

*Bunkerlər, casuslar, media senzurası...*



3

## Mücadiləli ömrün fəlsəfi şairi



4

## Formula 1 yarışları: gətirdiyi dividendlər



5

## Brend xəstəliyi: qlobal istehlak şəbəkəsi kimə işləyir?



13

## Vətənlə qoşa çəkilir adın




Əliyev Lətif Oruc oğlu
1995 -ci ilin 15 avqustunda
Naxçıvan Muxtar Respublikasının
Şərur rayonunun Xanlıqlar
kəndində anadan olmuşdur.
2001-ci ildə Xanlıqlar kəndinin
Zülfüqar Hüseynov adına
orta məktəbinə getmiş və
2012-ci ildə həmin məktəbdən
məzun olmuşdur.
2013-cü ildə Şərur rayon
hərbi komisarlığına çağrılmışdır.
2015-ci ildə hərbi xidmətini
başa vurduqdan sonra
başqa işlərdə çalışmışdır.

12

## Putin uduzur, yoxsa TƏLƏ qurur?



6

# Müzəffər ölkənin qalib idmançıları!

## Dövlət başçısının Sərəncamları ilə Fransanın Paris şəhərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında uğur qazanmış idmançılarımız mükafatlandırılıb



Sağlam bədəndə sağlam ruh olar, - deyiblər. Sağlamlıq xoşbəxt həyatın əsas şərti və təminatıdır. Əlbəttə ki, insan ruhunun sabitliyi, baş verən hadisələrə psixoloji baxımdan düzgün yanaşması fiziki sağlamlıq faktoru ilə sıx bağlıdır. Sağlamlıq ən böyük nemətlərdən olduğundan hər bir insan onu qorumağı bacarmalıdır. İdmanla məşğul olmaq insan sağlamlığının qorunmasında, ruh yüksəkliyinin artmasında müstəsnadır. Ölkəmizdə gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsi dövlətimiz tərəfindən daim diqqət mərkəzində saxlanıldığından bu sahənin inkişafı istiqamətində mühüm qərarlar verilir və sənədlər imzalanır. Qeyd edək ki, bu gün Azərbaycanda Olimpiya Hərakatı öz inkişaf dövrünü yaşayır. Dövlətin idmana olan qayğısı baxımından Azərbaycan dünyada öndə gedən ölkələr sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən dünya və Avropa çempionatları, bir daha sübut edir ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Olimpiya Oyunları dedikdə, yalnız idman yarışlarını, idman həyatının insanlara bəxş etdiyi dəyərləri dar mənada yox, geniş və fəlsəfi anlayış kimi qəbul olunur. Olimpiya Oyunlarının böyüklüyü idmançıların təkcə yarışlarda göstərdikləri idman nəticələri deyil, bu oyunlarda idmançı mənəviyyatı, onun kamil bir insan kimi formalaşması prosesinin reallaşdırılması, onun müqəddəs ideyalara xidmət etməsindən irəli gəlir. Olimpiya Hərəkatı sülh və əmin-amanlıqla daim yanaşı durmuşdur.

### AZƏRBAYCAN İDMANININ QƏLƏBƏ SORAQLARI

Əgər idman sahəsində uğurlarımıza və idmançılarımızın əldə etdiyi nailiyyətlərə nəzər salsaq görərik ki, Azərbaycan idmançıları beynəlxalq yarışlarda kifayət qədər yüksək nəticələr əldə etmişdirlər. İdmançılarımıza ayrılan diqqət, göstərilən etimad cavabsız qalmamışdır. Belə ki, Sidney görüşü ölkəmizə 2 qızıl, 1 bürünc medal qazandırdı. Afinadan Azərbaycana 5 medalla qayıdan idmançılarımız Pekin yarışlarında 1 qızıl, 2 gümüş, 4 bürünc medalla idman tarixinə imza atmış oldular. İdmançılarımızın dünya birliyində tanınmasına səbəb olan London XXX Yay Olimpiadası daha uğurlu oldu. Belə ki, qaliblər üçün nəzərdə tutulan medallardan 2 qızıl, 2 gümüş, 4 bürünc qazanmaqla ölkəmizə 10 medalla döndülər. Çində keçirilmiş yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənclərimiz əlavə aktivlər qazandılar. Göründüyü kimi saymaqla bitməyən uğurlar Azərbaycan idmanının qələbəsidir. XIII Avropa Gənclərinin Olimpiya Festivalı da atletlərimiz üçün uğurlu oldu. 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmaqla ümumi turnir cədvəlində 22-ci yeri tutdular. Və hər zaman idmançılarımız qələbə sevincini yaşayıb və bizlərə yaşadırlar. Əgər idmanın qələbə sorağından yazırıqsa, buraya Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunlarını da qeyd etməliyik. "Bakı-2015" ilk Avropa Oyunlarında yarışlarda Azərbaycan atletləri 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutması, eləcə də IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımız möhtəşəm uğura imza atmış oldular və "Bakı-2017"nin ən güclüləri oldular. Azərbaycanın "Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirakı və uğur qazanmaları Azərbaycan idman tarixində önəmli yer tutur. İdmanın 22 növü üzrə 529 dəst medal uğrunda keçirilən yarışlarda Azərbaycan millisinin 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 19 medal qazanması böyük nailiyyət oldu və bu Azərbaycanın paralimpiya tarixində bu, ən uğurlu Paralimpiya Oyunları kimi tarixiləşdi.

### YAY OLİMPİYA OYUNLARI - TARİXİLƏŞƏN QƏLƏBƏ

Bu günlərdə "Paris-2024" Yay Olimpiya Oyunlarında idmançılarımız növbəti uğurlara imza atıblar. "Paris-2024" Yay Olimpiya Oyunlarında 15 idman növü üzrə 48 idmançı ilə təmsil olunan Azərbaycan 7 medal qazanıb. Azərbaycan komandasının heyətində cüdoçular Hidayət Heydərov (73 kiloqram) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar, taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) və boksçu Alfonso Domingeş (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram), sərbəst güləşçilər Maqomedxan Maqomedov (97 kiloqram) və Giorgi Meşvildişvili (125 kiloqram) isə bürünc medala sahib çıxıblar. Ölkəmiz medal sıralamasında Xorvatiya ilə birlikdə 30-31-ci yerləri bölüşdürüb. Ümumilikdə Azərbaycan Paris Yay Olimpiya Oyunlarını 2 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurdu. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları əsasında Fransanın Paris şəhərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında uğur qazanmış idmançılarımız mükafatlandırılıblar. Belə ki, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə XXXIII Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün - birinci yeri tutan hər bir idmançıya 400 000 (dörd yüz min) manat, onun məşqçisinə 200 000 (iki yüz min) manat, ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat, üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat mükafatl müəyyən edilib. Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançıları və onların məşqçiləri Heydərov Hidayət Minayət oğlu, Kotsoiev Zelim Oleqoviç Məmmədov Elxan Əbülfəz oğlu, Trautmann Riçard "Şöhrət" ordeni ilə, Həsənov Tərlan Əliheydər oğlu 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, digərləri isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Tərəqqi" medalı ilə təltif olunublar. Dövlət başçısının bu və ya digər sərncamları idmançılarımıza olan diqqət və qayğının nümunəsidir.

### AZƏRBAYCANIN İDMANÇILARI BU GÜN YARIŞLARA QALİB ÖLKƏNİN NÜMAYƏNDƏLƏRİ KİMİ QATILIRLAR

Son illərdə ölkəmizdə 50-dən çox müasir Olimpiya mərkəzləri inşa olunub. İdmanın inkişafına geniş prizmadan yanaşılır və kompleks tədbirlər görülür. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətli idi. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son illərdə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Əlbəttə ki, bu Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırır. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər. Dünya arenasında idman ölkəsi kimi tanınan Azərbaycanın idmançıları bu gün yarışlara qalib ölkənin nümayəndələri kimi qatılırlar. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək."

### "İDMAN SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ UĞURLAR, BAYRAĞIMIZIN QALDIRILMASI, HİMNİMİZİN SƏSLƏNDİRİLMƏSİ VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNİ DAHA DA GÜCLƏNDİRİRDİ"

Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvər hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycanın mərd oğulları şəhidlik zirvəsinə yüksəldilər. Bu torpağın qazisi oldular. Bu günün gənci bu məsuliyyəti dərk edir və sabaha doğru inamla addımlayır. Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir. "Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq"- deyə bildirən Cənab Prezident qeyd edib ki, bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik: "Bəli, bu məğlubiyyətin səbəbləri var idi, o vaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi".

İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. "Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik", - deyərək bildirib ki, bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq. Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızda da idmanın inkişafına diqqət ayrılır. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır. Dövlət başçısın qeyd etdiyi kimi, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir: "Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır".

***Zümrüd BAYRAMOVA***

# Qərb "soyuq müharibə"yə qayıdıb

*Bunkerlər, casuslar, media senzurası...*

Ukraynada münaqişə uzandıqca Qərb tədricən soyuq müharibənin reallıqlarına qayıdır. Beləliklə, insanlar ərzaq ehtiyatı yığır və sığınacaqlar hazırlayır, ölkələr hərbi xidmətə çağırışı bərpa edir və silah şirkətləri qlobal siyasətə rəhbərlik edirlər. Ukrayna münaqişəsi uzandıqca Avropa 1945-ci ildən 1991-ci ilə qədərki dövrə qayıdır. Ekspertlər bu prosesi ikinci soyuq müharibə adlandırırlar. Qərb ölkələrində hərbi xidmətə çağırış, casusluq və qadağalar geri qayıdır, insanlar yenidən ərzaq ehtiyatı yığır, sığınacaqlar hazırlayır. Ağaclar, səliqəli taxta evlər... Bir-birinin ardınca nümayiş etdirilən velosipedlər. Cazibədar binalar kənardan bir mərtəbəli görünür, lakin əslində böyük zirzəmiləri olan üç mərtəbədən ibarətdir. Damlar xüsusi diqqət çəkir...

Eyni rəngdədir. Bütün bu mənzərə ən şəffaf göldə əks olunub. İki nəfər qazonda gəzir. Onlarla bir it var. Onlar nə köhnə, nə də yeni, adi görünən və eyni zamanda bir avtomobilə uyğun gəlir - yox, böyük bir gövdə ilə. Arxa oturacaqda uşaq və ev heyvanı oturur. Ata sevinclə onların hər ikisini təhlükəsizlik kəməri ilə bağlayır. Sonra sükan arxasına keçir. Uşaq bağçaya aparılır, bütün günü meşəlik bir sahənin ortasında sevinclə keçirəcək, it isə təlim kurslarına aparılır. Evə qayıdır. Saat cəmi 08.00. Arvad səhər yeməyi hazırlayır. Yulaf əzməsi, çovdar çörəyi, qəhvə, pendir, meyvə, giləmeyvə yoqurtu...

## Müharibə hər səhər qapını döyə bilər

Bu mənzərəni bütün Qərb filmlərində görmək olar. Amma ilk növbədə yada Qərb və Şimali Avropa ölkələri gəlir. Məsələn, Finlandiya. Yalnız bu yaxınlarda filmlərdən bizə tanış olan bu səhər yeməyinin arxasında duran ən mühüm mövzulardan biri sığınacaqlar, qida ehtiyatları, hətta gizli güllələr və təbii ki, silahlar. Buu, artıq bir filmdən bir səhnə deyil, məqaləmizdə danışacağımız bir reallıqdır.

Qərb yenidən soyuq müharibəyə qayıdıb. Döyüş əməliyyatlarının Ukrayna sərhədlərini aşması riski hər səhər qapımızı döyür. Ona görə də Avropa ölkələri soyuq müharibə dövründə olduğu kimi hər an başlaya biləcək qaynar münaqişəyə hazırlaşır. Müharibəyə hazırlıq təkcə dövlətin bütün səviyyələri ilə məhdudlaşmır, həm də ailədən tutmuş məktəbə qədər cəmiyyətin bütün səviyyələrində müşahidə olunur. Soyuq müharibəni xatırladan Avropada baş verən son hadisələrə nəzər salaq...

## Silah alverçiləri xoşbəxtdir

Soyuq Müharibə dövründə qlobal siyasətə rəhbərlik edən ən mühüm elementlərdən biri silah şirkətləri idi. Hal-hazırda, əsasən ABŞ-da yerləşən bu müəssisələr yenidən öz işlərinə qayıdırlar. Məsələn, Aİ ölkələri Ukrayna münaqişəsi başlayandan bəri Kiyevə yardım üçün 143 milyard avro ayırıb. Ona görə də belə görünür ki, bu silah alverçiləri Aİ siyasətinin yaxın gələcəyini müəyyən edəcəklər. Təcrübə göstərir ki, silaha xərclənən tıxac açıldıqdan sonra müqavimət göstərmək olduqca çətindir.

## "Biz müharibəyə hazır olmalıyıq"

Son zamanlar Avropa ölkələrində "müharibə qapımızdadır, hazırlaşmalıyıq" ruhunda bəyanatlar daha çox eşidilir.

Almaniya. Bundesverin baş müfəttişi Carsten Breuer deyib ki, ölkəsi beş il ərzində müharibəyə hazır olmalıdır.

Polşa Baş nazir Donald Tusk: "Avropa indi müharibədən əvvəlki dövrdədir".

Serbiya. Prezident Aleksandar Vucic qeyd edib ki, 3-4 ay ərzində dünyada böyük münaqişə baş verəcək.



NATO. Alyans Soyuq Müharibədən sonra 90.000 əsgərin iştirak etdiyi ən böyük təlimini keçirdi.

## Berlin divarı geri qayıdır?

Koreya və Vyetnam müharibələri, U2 casus təyyarəsinin məhv edilməsi, Kuba raket böhranı, 1950-ci illərdə Yaxın Şərqdə baş verən hadisələr və təkcə Almaniyanı deyil, Avropanı da iki yerə bölən Berlin divarı birinci soyuq müharibənin ən yadda qalan hadisələridir. Bəzi şərhlərə görə, Berlin divarı fərqli formada qayıdır. Bu ilin iyununda Avropa Parlamentinə seçkilər keçirilib. İfrat sağçı partiyalar tarixi qələbələrini elan ediblər. Bu seçkilər nəticəsində Almaniya faktiki olaraq yenidən ikiyə bölündü: uzaq sağ şərq və qərbə qarşı blokla.

## Media qadağaları

Müharibəyə doğru irəliləyən Avropada mediaya təzyiqlər artır. Belə ki, mayın 17-də Aİ Rusiya KİV-lərinin, xüsusən də "Avropanın Səsi", "RİA Novosti", "İzvestiya" və "Rossiyskaya qazeta"nın yayımını dayandırmaq qərarına gəlib. İntiqam çox keçmədi. Moskva həmçinin Politico, EU Observer, İrlandiyanın RTE ictimai yayımı, Fransanın Le Monde qəzeti və Almaniyanın Der Spiegel jurnalı da daxil olmaqla 81 KİV-ə qadağa qoyub.

## Məcburi hərbi xidmət bərpa olunur

Almaniya. Hərbi xidmətə çağırış 2011-ci ildə ləğv edilib, lakin lazım olan kimi bərpa olunacaq.

İsveç. Məcburi hərbi xidmətə yenidən başladı.

Danimarka. Hərbi xidmətə çağırış qüvvədədir, lakin könüllülər kifayət qədərdir.

ABŞ - Böyük Britaniya. Peşəkar ordu var.

Fransa. Məcburi hərbi xidmətin tətbiqi gündəmdədir.

Norveç. 18 yaşından etibarən kişilər və qadınlar üçün universal hərbi çağırış var.

## Hər gün yeni bir casus



Casuslar tez-tez Soyuq Müharibə filmlərində görünür. Bu gün Avropada və Rusiyada, eləcə də ABŞ və Çində demək olar ki, hamı yenidən potensial "casus" hesab olunur. Beləliklə, son aylarda ABŞ-ın vurduğu Çin casus şarı haqqında çox danışılır.

## Sığınacaqlarda daha çox insan yerləşə bilər

ABŞ-da insanlar uzun illərdir ki, bunkerlərin sayından danışırlar. İndi Avropa ölkələrində Rusiya ilə müharibə olacağı təqdirdə sığınacaqlar qurulur.

Finlandiya. Onun Rusiya ilə 1,3 min kilometr uzunluğunda sərhədi var. Əhalisi beş milyon yarımdır. Ölkədə 55 minə yaxın bunker var. Məsələn, Helsinki. Finlandiya paytaxtının əhalisi 650 min nəfərdir. Eyni zamanda, tarixi daş binaları ilə məşhur olan şəhərdə 900 min nəfərlik kifayət qədər bunkerlər var.

Norveç. Bu yaxınlarda ölkədə "gözlənilməz vəziyyətlər yaranarsa, 30 min ton taxıl ehtiyatı saxlayacağı" açıqlandı.

Böyük Britaniya. 276 nüvə bunkeri.

Almaniya. 19 belə sığınacaq. Ölkə vətəndaşlarına "evlərinin altında sığınacaqlar yaratmaları" da bildirilib.

Minlərlə insan eyni anda nüvə bunkerlərinə girə bilər. Almaniya da Britaniya kimi yeni sığınacaqlar tikir.

Polşa. Varşavada növbəti iki il ərzində 27 milyon avroya hava hücumundan müdafiə sığınacaqları tikiləcək.

Latviya - Litva - Estoniya. Rusiya Ukraynaya hücum edəndə insanlar paytaxt Kiyev metrosuna sığınıb. Üç Baltikyanı ölkə oxşar strategiyanı həyata keçirməyə hazırlaşır. Bundan əlavə, Estoniya 600 bunker tikəcəyini açıqlayıb.

## Siyasi münaqişələr yenidən başlayıb

Ukrayna münaqişəsi uzandıqca tərəfləri dalana aparır. Özlərini barıt çəlləyində tapan təkcə Avropa və Rusiya deyil. ABŞ da böhranda birbaşa iştirak edir. Və hətta Çin. Almaniya və Fransa baxımından Ukraynaya dəstək əslində sərmayədir. Almaniyanın xarici işlər naziri bu yardımı "öz təhlükəsizliyimizə investisiya" adlandırıb. Başqa sözlə, heç kim başqasının xeyrinə tərəf tutmur. Lakin artıq dediyimiz kimi, hərbi münaqişə uzandıqca Avropada əmələ gələn çatlardan yaranan çatlar daha da güclənir. Üstəlik, Rusiya öz əks hərəkətlərini edir. Çin, Vyetnam, Şimali Koreya, İran kimi ölkələrlə yeni bloklar yaradır və artıq bunu gizlətmir. O deyir: "Avropanın Ukraynaya göndərdiyi silahlara hücum edəcəyik, antiamerikan ölkələrə siyasi və hərbi dəstək verəcəyik".

## Birinci və ikinci soyuq müharibə

1945-ci ilin avqustu. ABŞ Xirosimaya atom bombası atdı. Yaponiya dünya tarixində nüvə silahı ilə hücuma məruz qalan ilk ölkə oldu. Bu qırğın İkinci Dünya Müharibəsinin başa çatması idi.

26 dekabr 1991-ci il. Sovet İttifaqı rəsmən dağıldı. 1945-ci ildən 1991-ci ilə qədər ABŞ və SSRİ arasında baş verən rəqabət Soyuq Müharibə adlanırdı. İki fövqəldövlət bir-biri ilə birbaşa qarşıdurmaya girmədən dünyanı gərgin ideoloji mübarizəyə qərq etmişdi.

24 fevral 2022-ci il. Rusiyanın Ukraynada xüsusi hərbi əməliyyata başlamasından sonra beynəlxalq münasibətlər sahəsində ekspertlərin fikrincə, yeni soyuq müharibə dövrü başlayıb. Buna görə də bəziləri hətta indiki prosesi ikinci soyuq müharibə dövrü adlandırırlar.

## Sərhədlər bağlanır

Son zamanlar Avropa ölkələri arasında sərbəst hərəkət prosedurları pozulur. Avropa Birliyinin ən mühüm üstünlüklərindən biri olan nəzarətsiz sərhəd keçidləri getdikcə daha çox məhdudlaşdırılır. Məsələn, yoxlamalar Avstriya - Çexiya və ya Danimarka - Almaniyanın quru sərhədlərində başlayıb. Norveç Şengen bölgəsi ilə bərə əlaqəsi olan limanlarında sərhəd nəzarətini bərpa edib. Bundan əlavə, Polşa, Litva, Latviya və Estoniya Aİ-dən Rusiya və Belarusla sərhəddə 700 kilometrlik müdafiə xətti çəkməyi xahiş ediblər.

**V.VƏLİYEV**

BAKURS



# Mücadiləli ömrün fəlsəfi şairi

***Azərbaycan poeziyası tarixində özünəməxsus yeri və mövqeyi ilə seçilən Bəxtiyar Vahabzadə zəngin və rəngarəng poetik dünyası ilə yaratdığı söz mülkündə ustad bir şair kimi müdriklik zirvəsinə yüksəldi. Yaradıcılığa şeirlə başlayan, sonralar poema və dram əsərlərinin müəllifinə çevrilən şair zamanın girdabında mücadilədən dönmədi. Haqq səsi ucaldı, mətinliyi ilə seçildi və misralardan süzülən od-alovlu fikiri milyonlarla insanın fikir dünyasına əxz olundu.***

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

Əzəli və tarixi torpağımızı qanla möhürləyib, hərb gücünə aldıq. 44 günlük Vətən müharibəsində Zəfər qazandıq. Erməni təcavüzkarlarının 30 ilə yaxın işğalında olan torpaqlarımız azad olundu. Azərbaycan Zəfər qazanmış dövlət olaraq gücünü dünyaya nümayiş etdirdi. Xalqımız Zəfər sevincini yaşadı, bütün narahat ruhlara bu sevincdən pay düşdü. Torpaq həsrəti ilə dünyasını dəyişən böyük şair Bəxtiyar Vahabzadə ruhu da bu gün şaddır. Ruhu Azad Qarabağımızda, Şuşamızda pərvazlanır.

Yatır bu torpaqda əcdadım mənim.
Şərəfim,
Şöhrətim,
Öz adım mənim...
Cəddimin yatdığı ulu torpağı,
Sinəsi sərvətlə torpağı,
Mən sənə pay verim?

- deyən şair özgə torpağı hesabına "Böyük Ermənistan" yaradan ermənilərin vəhşi simasını obrazlı bir şəkildə təqdim edir. Vartazar yaşayan bütün ölkələri özlərinə vətən bilən ermənilərin bəlkə, bütün dünya elə vətənləri imiş.

Günahım nədir ki, qanqal kimi sən
Bütün yer üzünə səpələnmisən?..

Şair digər bir şeirində isə belə yazır:

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular.

Bu müdrik misralar insana Vətənin böyüklüyünü, onun müqəddəsliyini bir daha aşılayır. Vətən bu müqəddəs məkanda doğulan, onun üstündə gəzən varlıqların diyarıdır. "Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik. Biz Vətən naminə ölsək, dirilərdən diriyik". Əlbəttə ki, Vətən uğrunda ölənlər ən müqəddəs insanlardır və tarix boyu belə insanların ismi nə yaddaşlardan, nə də yazılı salnamələrdən silinmir. Əlbəttə ki, belə ruhda yazıb-yaradan, Vətən müqəddəsliyini, sevgisini belə möhtəşəm sözlərlə, rənglərlə ifadə etmək varlıqları insanın içindən boy verən ali sevginin təzahürüdür. Bu sevgi müdrik qələmdən yazıya köçə bilən, dünya görmüş bir insanın düşüncələrinin əksidir. Bu hikmət Bəxtiyar Vahabzadə dünyasından qopan bir təşnədir. Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan şeirinin son yarıməsrlik təkamül prosesində səsi, qələmi olan şairdir.

## ZAMANIN GƏRDİŞİ, ÇƏRXİ-FƏLƏYİN GƏRDİŞİ

"Vaxtın dəyirmanında daş əridi, qum oldu, Tarixə atdığımız qayıtdı, lüzum oldu". Böyük bir fəlsəfə var, bu misralarda. Zamanın gərdişi, çərxi-fələyin gərdişi. "Çərxi-fələk istəyir lap dolana tərsinə, əqidəmi heç nəyə dəyişmərəm mən yenə". Əqidə şairi idi, ruh şairi idi Bəxtiyar Vahabzadə. Zaman onu həyatın hər üzü ilə üz-üzə qoydu. İctimai-siyasi proseslərdə öz düşüncəsini ortaya qoydu. Böyük şair xalqın çətin günündə onunla ağladı, onun sevincinə şərik oldu.

Keçdiyi ömür yolu böyük bir salnamədir. Yaradıcılıq salnaməsi. Hər sətrindən Azərbaycan səsi eşidilir. Hər misrası solmayan, üstünə kölgə düşməyən qiymətli bir xəzinədir. Paylandıqca insanların iç dünyasından bir işıq boylanacaqdır. Tərcümeyi-halı ədəbiyyatımızın silinməz səhifəsidir ki, vərəqləyərkən oxuyuruq: Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur.

Kiçik yaşlarında ailəsilə birlikdə Bakıya köçən Bəxtiyar Vahabzadə burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır. O, universitetin aspiranturasında saxlanılmış, "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Sənətkar keçdiyi ömür yolunun hər mərhələsində böyük amalların, məsləklərin gerçəkləşməsində ömrünü şam kimi əritdi. "Şam əgər yanmırsa, yaşamır demək", - deyən şair, bir ömrün keşməkeşli, əzablı yollarında yaşayarkən yanmağın kökünü həyat eşqində, vətənə bağlılıqda dərk edirdi.

Bəxtiyar Vahabzadə elə bir şairdir ki, onun nəfəsindən duyulanlar vətənə sevgidən qaynaqlanır. Zamanın diqtəsini qəlbində çözürdü. Fikir dünyasında saf-çürük etdiklərini geniş bir aləmə bəxş edirdi. Azad düşüncədən yoğrulan fikirləri oxucuların ruhi dünyasına o qədər yaxındır ki, sanki cəmiyyətin verdiyi bir mesajı o, obrazlaşdıraraq misralara köçürüb. Fikir yükü dərin olan şair yazır:

Qocaldır insanı, qocaldır zaman;
Ürəyin atəşi, közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

- yazaraq, hikmət xəzinəsindən oxucu dünyasına bir yol salır, onun arzu və istəklərini poetikləşdirir.

## HƏR MİSRASI FƏLSƏFƏ VƏ HƏYATI ÖYRƏNMƏK ÜÇÜN SİRLİ QAPIDIR

Xalqın milli-mənəvi dəyərlərinin çərçivəsində vətəninə



xidmət göstərən şair yaradıcılıq yolunda ana dilinin saflığı, vətəninin bütövlüyü uğrunda mübarizə aparmışdır. İctimai fəaliyyəti, onun ədəbi fəaliyyətinə heç də təsir göstərməmiş, hər iki cəhətdən, məhz Bəxtiyar Vahabzadə olduğunu sübut edə bilmiş, dövrün hadisələri və tələbləri çərçivəsində yaradıcılığında özünə qarşı münasibət oyada bilmişdir. Onun ikiyə bölünmüş vətən torpağının harayından, Qarabağ faciəsindən bəhs edən şeirləri zəngin və təqdirəlayiqdir. Azərbaycan Ali Sovetinin və Milli Məclisinin deputatı seçilmiş Bəxtiyar Vahabzadə xalqımızın həyatının ən çətin və mürəkkəb anlarında baş verən taleyüklü hadisələrə münasibətdə əsl vətənpərvər ziyalı mövqeyini nümayiş etdirmişdir. 20 Yanvar faciəsi törədilən zaman Bəxtiyar Vahabzadə faciənin törənməsini aydınlaşdırmaq, onun siyasi qiymətini vermək üçün əqidə dostlarını bir araya toplayıb çıxış edərək, postsovet məkanında, yaşadığımız dövr ərzində, sovet imperiyasına xidmət etmiş insanlara qarşı yürüdülən amansız siyasətin məğzini açmağa, onun hökmünün dərinliklərini xalqa təqdim etməyə cəhd etmişdir. Bəxtiyar Vahabzadə dövrünün şairi olsa da, zamanı qabaqlayan şəxsiyyətlər sırasındadır. Əqli düşüncəsini fəlsəfi görüşlərində əks etdirən şair 20 Yanvar faciəsinin, Qarabağ şəhidlərinin ağır və mübarizəli həyat yolunu, qaçqın-köçkün həyatı yaşayan insanların nisgil və kədərini poeziyasında əks etdirmişdir.

Bəxtiyar Vahabzadə tədqiqatçı-alim kimi Azərbaycan elmi qarşısında xidmətlər göstərmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılamışdır. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edir. Xalqının gücü ilə yazıb-yaratmış Bəxtiyar Vahabzadə Azərbaycan dilinə qarşı soyuq münasibət gördüyü zaman qələmini bu istiqamətdə kökləyib, "Mənim ana dilim" şeirini yazaraq, bu şeirin arxasında bir şəxsiyyət kimi çıxış edib, ana dilinin qorunması, onun saflığının saxlanılması üçün bütün insanları - azərbaycanlıları anasına hörmət etdiyi tək, ana dilinə də belə məhəbbət və ehtiramla yanaşmağa səsləyirdi. Bəxtiyar Vahabzadə öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüzillər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb-yaratmışdır.



Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam

- deyən şair ondakı tilsimlərin "Kürü ahıyla qurutdu"ğunu, "Salı yandırdı"ğını bildirib:

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Böyük söz ustadının hər misrası bir fəlsəfədir və həyatı öyrənmək üçün bəlkə də bir sirli qapıdır.

## MÜSTƏMLƏKƏ ƏLEYHİNƏ ÇIXIŞ EDƏN ŞAİR

O, azərbaycançılıq məfkurəsi ilə dərindən bağlı olan və milli özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş hadisələr və böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində dayanırdı. Ötən əsrin 60-cı illərinin əvvəllərində qələmə aldığı "Gülüstan" poemasının həyat və fəaliyyətinə çox böyük maneələr yaradacağını bildiyi halda, bu əsəri qələmə almışdır. Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə daim can atan, ömrü boyu müstəmləkə əleyhinə çıxış edən şair tarixi materiallara söykənib, milli qəhrəmanlıq ənənələrini yaşadan əsərlərlə mütəmadi çıxış etmişdir. Babəkin ölümü, ona qarşı olan xəyanət tarixi materiallar əsasında Bəxtiyar Vahabzadəyə tam dəqiqliyi ilə məlum olduğundan, o, Səhl Sumbat kimilərin vətən eşqi ilə yaşayan insanlara qarşı olan münasibətini, birmənalı qarşılayaraq, onlara qəti şəkildə etiraz və nifrətini bildirirdi.

Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən, ingilis, fransız, alman, fars, polyak, ispan, macar, keçmiş sovetlər birliyi xalqlarının dillərinə tərcümə edilib. Bəxtiyar Vahabzadə respublikamızın hüdudlarından uzaqlarda ölkəmizi layiqincə təmsil edərək, milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması naminə qüvvə və bacarığını əsirgəməmişdir. O, 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin müəllifidir. Bəxtiyar Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu olmuşdur. Onun pyesləri Azərbaycan və eləcə də, xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulmuş və müəllifinə geniş şöhrət gətirmişdir. Azərbaycan Akademik Dövlət Dram Teatrının səhnəsində onun "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" pyesləri tamaşaya qoyulub. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir. Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində Bəxtiyar Vahabzadənin müstəsna xidmətləri vardır.

Bəxtiyar Vahabzadənin ədəbi-elmi və ictimai fəaliyyəti dövlətiiz tərəfindən yüksək qiymətləndirilmişdir. 1974-cü ildə əməkdar incəsənət xadimi adına, 1975-ci ildə respublika, 1984-cü ildə isə SSRİ Dövlət Mükafatlarına layiq görülüb. 1985-ci ildə ona Azərbaycanın xalq şairi fəxri adı verilib, 1995-ci ildə Azərbaycan xalqının milli azadlıq mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilib. O, bir sıra orden və medallara, o cümlədən, Azərbaycan Respublikasının ali dövlət təltifi olan "İstiqlal" ordeninə layiq görülmüşdür. Görkəmli şair, dramaturq və ədəbiyyatşünas, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, xalq şairi, əməkdar incəsənət xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, Prezidentin fərdi təqaüdçüsü Bəxtiyar Vahabzadə ömrünün 84-cü ilində dünyasını dəyişib.

***Zümrüd BAYRAMOVA***

# Formula 1 yarışları: gətirdiyi dividendlər

## Prezident İlham Əliyev: "Yarım milyard auditoriyası olan bu yarış əlbəttə ki, Azərbaycan üçün çox böyük fayda gətirir"



***Avtoidman növlərinin zirvəsi kimi qəbul edilən Formula 1 zəngin tarixə malikdir. Dünyanın ən güclü və məşhur Formula 1 yarışı 2016-cı ildən başlayaraq, paytaxtımızda keçirilir və yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb.***

Yarışın keçirilmə tarixinə nəzər salsaq görərik ki, ilk dünya çempionatının birinci yarışı 1950-ci il mayın 13-də Böyük Britaniyanın Silverstoun trasında baş tutub. Hər ilin sonunda çempionatın qalibi müəyyən edilir. Əslində Formula 1 yarışlarının kökləri 20-ci əsrə qədər uzanır. Belə ki, Avropada 1900-cü illərin əvvəllərindən bəri avtomobil yarışları həyata keçirilirdi. 1930 və 1940-cı illərdə isə bu yarışları vahid çempionatda təşkil etmək məqsədi daşıyan bir neçə görüş keçirilsə də İkinci Dünya Müharibəsinin başlaması bu planlara mane olub. 1946-cı ildə, müharibə başa çatdıqdan sonra isə FIA (Beynəlxalq Avtomobil Federasiyası) bir sıra qaydalar toplusunu standartlaşdıraraq, sürücülər üçün çempionat keçirməyə başlayıb. Beləliklə ilk Formula 1 yarışı 1950-ci ildə İngiltərə, Silverstounda keçirilib. Bununla yanaşı, bu idmanın yaranmasından bəri dünyanın hər yerindən olan sürücülər Fransa, İngiltərə və İspaniya kimi Avropa ölkələrində Qran Prilərdə yarışıblar. Çempionatda həm sürücülər, həm də komandalar yarışırlar. Sürücülər dünya çempionu titulu uğrunda, komandalar isə Mühəndislər Kuboku uğrunda mübarizə aparırlar.

### QİTƏNİN İDMAN TARİXİNƏ MÖHÜRÜNÜ VURAN AZƏRBAYCAN

Ölkəmizdə keçirilən Formula 1 yarışları yüksək standartlara cavab verib. Belə ki, yarışların keçirildiyi şəhər istər yol infrastrukturu, istərsə də qabaqcıl təhlükəsizlik tədbirlərinin təmin edilməsi baxımından yüksək standartlara cavab verir. Bakı həqiqətən də nüfuzlu beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının keçirilməsi baxımından yüksək təşkilati və texniki bazaya malikdir.

İqtisadi inkişafımız da, məhz belə tədbirlərin Azərbaycanda keçirilməsinə geniş imkanlar açıb. Ölkəmizdə kifayət qədər idman yarışları da keçirilib ki, bu da dünyanın idman nəbzinin Bakıda döyünməsinə səbəb olub. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunmuş və bu gün də belədir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuşdu. Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib.

### "FORMULA 1 YARIŞINI KEÇİRƏN ŞƏHƏRLƏR İNKİŞAF ETMİŞ ÖLKƏLƏRİN YA PAYTAXT ŞƏHƏRLƏRİ, YA DA Kİ, BÖYÜK ŞƏHƏRLƏRİDİR"

Birinci Avropa Oyunlarından sonra Formula 1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman ölkəsi olduğunu bu sahənin inkişafına dövlət səviyyəsində xüsusi diqqət göstərildiyini əks etdirir. "Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o, ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. Formula 1 yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci Formula 1-dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır" - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir. Bu il Bakıya rekord sayda beynəlxalq tamaşaçı gəlib. Statistik rəqəmlərə əsasən, deyə bilərik ki, Formula 1-ə gələn hər turist - 3000 dollar pul xərcləyir. Böyük Britaniya, ABŞ, Türkiyə, Skandinaviya kimi ölkələrdən turist axını çox olur. Deyə bilərik ki, Bakıda 2016-2019-cu illər ərzində keçirilən Formula 1 yarışları ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə faydalı olub. Belə ki, Formula 1 yarışları ölkə iqtisadiyyatına 506.3 milyon dollar gəlir gətirib. Hesabatda 506.3 milyon dollar olaraq göstərilən yekun məbləğ yarışlar ərəfəsində Formula 1 ilə əlaqədar olaraq Bakıya gələnlərin xərcləri əsasında yaranmış birbaşa və dolayı gəlirləri əhatə edir. Bu rəqəmə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən peşəkar xidmətlər, hotel və mehmanxana, restoran, nəqliyyat, sosial və mədəni xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya, topdan ticarət və elektrik, qaz, su və digər sektorlarda qeydə alınmış gəlirlər daxildir. Birbaşa gəlirlərdə əsas yeri turizm, mehmanxana və nəqliyyat sektorları tutur.

### BİRİNCİ FORMULA 1 YARIŞINDAN SONRA AZƏRBAYCANA GƏLƏN TURİSTLƏRİN SAYI 22 FAİZ ARTDI

2016-cı ildən etibarən Bakıda keçirilən Formula 1 yarışları nəticəsində Azərbaycana gələn turistlərin sayında ciddi artım qeydə alınıb: "2015-ci ildə keçirilmiş Avropa Oyunlarından sonra və 2016-cı ildə keçirilmiş birinci Formula 1 yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. Yaxşı, nəyə görə bu vaxta qədər artmırdı. Bu vaxta qədər də biz turistləri cəlb etmək üçün səylər göstərirdik. Məhz Avropa Oyunları, Formula 1 yarışları turistlərin sayını 22 faiz qaldırdı", - deyə Azərbaycan Prezidenti bildirmişdir. Formula 1 yarışının ölkəyə böyük qazanclar gətirdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycan Qran Prisinin keçirilməsinin önəmini xüsusilə qeyd edib: "Təkcə Formula 1 yarışı birbaşa ölkəmizə, ölkəmizin xidmət sektoruna təxminən 300 milyon dollara yaxın vəsaitin daxil olmasına şərait yaratdı. Yarım milyard auditoriyası olan bu yarış əlbəttə ki, Azərbaycan üçün çox böyük fayda gətirir".

Qeyd edək ki, Formula 1 yarışlarını yerində canlı izləmək üçün Bakıya hər ötən il daha çox ölkədən turist gəlməkdədir. Digər tərəfdən, oxşar artım tendensiyası yarışın televiziya tamaşaçılarının sayında da müşahidə olunmaqdadır.

### BAKI ŞƏHƏR HALQASI DÜNYA ÇEMPİONATININ ƏN GÖZƏL TREKLƏRİNDƏNDİR

Azərbaycan Qran Prisi bütün idman sevənlərə yaddaqalan anlar yaşadıb. Azərbaycan Qran Prisi öz qısa tarixində bütün idman sevənlərə yaddaqalan anlar yaşadıb. Bakı xəritəsi yüksək sürətə imkan yaradan düz yolları, sıx dönmə hissələri ilə birləşdirən unikal trekdir və onu sürücülər üçün çətin və həyəcanlı edən bir çox özəllikləri var. Həmçinin Bakının mərkəzi küçələrindən keçən yollar şəhərin siluetinin və tarixi abidələrinin heyrətamiz mənzərələrini də izləyicilərə təqdim edir. Bu yarışlar həm də beynəlxalq miqyasda diqqəti Azərbaycana yönəldərək, ölkənin dünya miqyasında nüfuzunu artırmağa kömək edib. Formula 1 həyəcanı illərdir olduğu kimi bu gün də tam sürəti ilə davam edir. Bu həyəcanı 13-15 sentyabr tarixlərində yenidəm hiss edəcəyik.

Təbii ki, yarışların ölkəmizdə keçirilməsi və turist axınının artması ölkə iqtisadiyyatının bir sıra sahələrində canlanma yaratmış olur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir. Bu baxımdan ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədə təşkil olunur və Azərbaycan kütləvi yarışların keçirilməsinə tam hazırlıq vəziyyətdə olur. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində dünyada bu yarışlara marağın getdikcə artdığı bildirib və yarışları seyr etmək üçün ölkəmizə xeyli sayda turistlərin gəldiyini məmnunluqla ifadə edib. Dövlət başçısı Azərbaycanın turizm potensialının hər il daha da genişləndiyini diqqətə çatdırıb. Artıq dünyada çox tanınan Bakı şəhər halqası Formula 1 üzrə dünya çempionatının ən gözəl treklərindən biridir. Bakı şəhərinin gözəlliyi, təmizliyi və işıqlandırma sistemi xoş təəssürat yaradır. Dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula 1 Avropa Qran prisinin paytaxtımızda keçirilməsi ölkəmizin beynəlxalq idman ictimaiyyətində qazandığı uğurun və nüfuzun göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İran Qəzzadan asılı vəziyyətə düşüb

## İsrail və HƏMAS nə isə razılaşarsa, Tehran İsraili vurmaqdan imtina edə bilər



Tehran danışıqlarda iştirak edən tərəflərə Qəzza probleminin sülh yolu ilə həllini tapması üçün İsrailə vəd etdiyi zərbəni təxirə salmağa hazırdır. Bu barədə İranın kəşfiyyat xidmətlərindəki mənbələrə istinadən Reuters agentliyi məlumat yayıb. Bu arada ABŞ prezidenti Co Bayden ümid edib ki, İsrail və Fələstinin Həmas qrupu arasında dolayı danışıqlarda mümkün irəliləyiş İranı gərginləşdirməməyə inandıracaq. Qəzzada atəşkəsin şərtləri ilə bağlı müzakirələrin yeni mərhələsi avqustun 15-də Qətərdə baş tutması gözlənilir. Co Baydenin fikrincə, İsrail və HƏMAS arasında danışıqlarda irəliləyiş İranı Fələstin radikal hərəkatının lideri İsmayıl Haniyənin qətlinə görə elan edilmiş cavab tədbirindən imtina etməyə inandıra bilər. "Mən bunu gözləyirəm" deyən Bayden Qəzzada atəşkəsin iranlıları İsrail ərazisinə hücumdan çəkindirə biləcəyi sualına cavab verərkən vurğulayıb. Oxşar siqnallar Tehrandan da gəlib.

Reuters agentliyi İranın təhlükəsizlik mənbələrinə istinadən xəbər verib ki, İslam Respublikası sülh danışıqlarına şans vermək üçün vəd etdiyi zərbəni təxirə salmağa hazırdır. Eyni zamanda, məlumatda deyilir ki, iranlılar israillilərin sazişin müzakirəsini süni şəkildə gecikdirdiyini hiss etsələr, zərbə endirəcəklər. İsrail və HƏMAS arasında dolayı danışıqların növbəti mərhələsi avqustun 15-də Dohada başlamalıdır. İsrail nümayəndə heyətinə Mossad və Şabak kəşfiyyat xidmətlərinin rəhbərlərinin rəhbərlik edəcəyi gözlənilir. Bu arada HƏMAS danışıqlarda iştirak etməyəcəyini bildirib. Qrupun Siyasi Bürosunun üzvü Süheyl əl-Hindi "Əl-Ərəbi əl-Cədid" qəzetinə deyib ki, "hərəkat işğalçılardan (İsrail nəzərə tutulur) iyulun 2-də əldə olunan razılaşmaya uyğun olaraq açıq-aşkar öhdəlik götürməyi tələb edir. Bu mövqeyi HƏMAS lideri Yəhya Sinvar da təsdiqləyib. O vurğulayıb ki, qrupa İsrailin tərəflərin daha əvvəl razılaşdıqları şeyi yerinə yetirəcəyinə dair təminat lazımdır. HƏMAS-ın yüksək rütbəli rəsmisinin sözlərinə görə, İsrailin baş naziri Benyamin Netanyahu hələlik belə bir zəmanət verməyib ki, bu da sülh prosesinə mane olur.



The Wall Street Journal-ın iyul ayında yazdığı kimi, tərəflər atəşkəsin birinci mərhələsinin əksər aspektləri üzrə razılığa gələ biliblər. Nəşrin məlumatına görə, müzakirəçilər Qəzzanın müharibədən sonrakı strukturunu, o cümlədən anklavı idarə etmək üçün Fələstin Administrasiyasının təyin edilməsini müzakirə etməyə keçiblər. Bununla belə, iyulun ortalarında baş nazir Netanyahu İsrailin Qəzzanın perimetri üzərində nəzarəti və hərbçilərin zolağın şimalına qayıtma ehtimalı ilə bağlı tələblərində düzəliş edib. The New York Times-ın xəbər verdiyi görə, ictimaiyyətə açıqlanmayan başqa redaktələr də olub. Bununla belə, cənab Netanyahunun ofisi hökumət başçısının yeni şərtlər əlavə etdiyini inkar edir. Bu versiyaya görə, baş nazir yalnız bir sıra məsələlərdə "müəyyənliyi aydınlaşdırmağa çalışıb".

Bununla belə, HƏMAS son nəticədə söz verdiyi kimi, Dohada danışıqları buraxarsa, bu uğursuzluq sayıla bilməz. Qrup əvvəllər də dəfələrlə belə görüşlərə məhəl qoymayıb. İsrailin mövqeyi adətən Qətər və Misirin təmsil olunduğu vasitəçilər tərəfindən Həmas-a çatdırılır. Bundan əlavə, bu dəfəki görüş HƏMAS-ın qərargahının yerləşdiyi Dohada baş tutacaq.

ABŞ isə hələ də danışıqlarda fələstinlilərin iştirakına ümid edir. Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel dünən bildirib ki, Qətər rəsmiləri Vaşinqtonu qrupun danışıqlarda təmsil olunacağına əmin ediblər. Eyni zamanda, amerikalılar digər, əlaqəli məsələnin diplomatik həllini tapmağa çalışırlar, o cümlədən Livanın Hizbullah qrupu və HƏMAS-ın əsas müttəfiqləri olan İrandan gələn təhdidləri neytrallaşdırmaq. Bu həftənin əvvəlində ABŞ-ın xüsusi nümayəndəsi Amos Hochstein Hizbullahı İsrailə hücumdan çəkindirmək üçün Livana, Ağ Evin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Brett McGurk isə Qahirə və Dohaya səfər edib. Diplomatik enişə İsraildə gözlənilən ABŞ dövlət katibi Antoni Blinken rəhbərlik etməli idi. Lakin Axios portalının məlumatına görə, son anda Amerika diplomatiyasının rəhbəri Yaxın Şərq turunu ləğv edib. Nəşr buna səbəb kimi "vəziyyətin qeyri-müəyyənliyini" göstərir.

İsrail diplomatiyanın uğuruna o qədər də inanmır və İrandan hərbi zərbə endirməyə hazırlaşır. Bu qorxuları İran dövlət mediası da gücləndirir: Avqustun 13-də Press TV kanalı İslam Respublikasının Mossadın və Yəhudi Dövlətinin Baş Qərargahının yerləşdiyi Tel-Əvivdəki Kiriya hökumət məhəlləsini vura biləcəyini bildirib. Kanal digər hədəflər arasında Palmachim, Tel Nof və Sdot Micha hava bazalarını sadalayıb. Press TV etiraf edir ki, zərbə "yeraltı bunkerlərə çatmaq" üçün ballistik raketlərlə həyata keçiriləcək. Bununla belə, bu cür hədələyici mesajların Tehranın İraq, Livan və Yəməndəki yerli auditoriya və regional müttəfiqləri ilə üzünü xilas etmək cəhdi olması tamamilə mümkündür. İsmayıl Haniyənin ölümündən iki həftə keçib və hələ də vəd edilmiş qisas yoxdur. Küveytin "Əl-Cərida" qəzetinin yazdığına görə, İranın gecikməsi daha çox döyüşən "Hizbullah" və "Həmas"ı qıcıqlandırır. İslam İnqilabı Keşikçiləri Korpusundakı (SEPAH) mənbə nəşrə bildirib ki, bu yaxınlarda Tehranda regional silahlı birləşmələrin nümayəndələri ilə İİKK rəhbərliyi arasında görüş keçirilib. Müttəfiqlər tez bir zamanda zərbə endirilməsini tələb ediblər, lakin jurnalistlərə görə, İslam Respublikasının nümayəndələri, ən azı Qəzza üzrə danışıqlar ətrafında vəziyyət aydınlaşana qədər, cavab addımlarından çəkinməyə çağırıblar.

***V.VƏLİYEV***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Putin uduzur, yoxsa TƏLƏ qurur?

Ukrayna ətrafında mürəkkəb və həlledici oyun başlayıb. Həm siyasi, həm də hərbi mənada. Ağ Evi tərk etmək üçün günlərini sayan 80 yaşlı Co Baydenin dünya üçün qanlı miras qoyub getdiyi Ukrayna müharibəsi artıq həlledici mərhələyə daxil olub. Bu müharibədə həm də şifrəli hərbi tamaşa başlayıb. Guya Ukrayna Kursk vilayətinə qəfil hücum edir, Rusiyanın dərinliklərinə qədər irəliləyir. Üstəlik, Kurskla da bitmir məsələ, Ukrayna Rusiyanın daha bir neçə rayonunu ələ keçirir. Məqsəd də odur ki, rəsmi Kiyev Rusiya ilə həlledici danışıqlar ərəfəsində "əlini gücləndirmək" istəyir. Bu mənzərədən sanki belə görünür ki, Rusiya o dərəcədə zəifləyib ki, Ukrayna uniforması geyinmiş silahlı NATO qruplaşmaları qarşısında tam aciz vəziyyətdədir. Doğrudur, Ukraynanın Kurska girməsi və bununla da xarici ölkə tərəfindən Rusiya torpaqlarının 1941-45 müharibəsindən sonra ilk dəfə işğal olunması tarixə keçən hadisə oldu. Amma bunun gerçək hərbi proses kimi qiymətləndirilməsi, Ukraynanın Rusiyaya güc gəlməsi, Rusiya ordusunun belə acınacaqlı hala salınması qəti real durumu əks etdirmir. Çünki müharibə əvəzinə kəşfiyyat xarakterli hərbi gedişlər edilir. Heç kəs açıq müharibəyə birinci başlamaq istəmir. Sanki boks rinqində tərəflər bir-birinin əsəblərini və əzələlərini yoxlayırlar.

Əlbəttə, bütün dünyaya məlumdur ki, rəsmi Kiyevin tərəfində Rusiyaya qarşı Ukrayna uniforması altında NATO ölkələri, hətta konkret olaraq Almaniya, İngiltərə, Fransa hərbi qruplaşmaları vuruşurlar. Müharibədən daha çox siyasi Zavallı Ukrayna isə qərb koalisiyasının Rusiyaya qarşı qanlı planları üçün, sadəcə, plastarm rolunu oynayır - xarabazarlığa çevrilmiş, sakinləri dünyaya didərgin düşən, şəhərləri yerlə yeksan edilən Ukrayna canlanır gözümüzün qabağında... Hələ 2022-ci ilin soyuq 24 fevral tarixində rus tankları üzünü Kiyevə çevirəndə, qədim slavyan paytaxtının düz qapısının ağzına qədər gəlib sonra geri dönəndə, bu münaqişənin real müharibədən daha çox siyasi oyunlar üçün hazırlanan hərbi tamaşa, daha doğrusu, "əsəb müharibəsi" olduğunu hər kəs anlamışdı. C.Baydenin 1970-ci illərdən beyninə qoyduğu bir ideya vardı: Rusiya ilə Avropanın sərhədləri Şərqi Avropadan deyil, slavyan ölkəsi olan Ukraynadan keçməlidir. Və yaddaşını itirmiş bu qoca həmin ideyasını reallaşdırmaq üçün Ukrayna kimi bir ölkəni yerlə yeksan etdi, on minlərlə ukraynalı yurd-yuvasından didərgin düşdü, uşaq-qoca-qadın məhv olub getdilər...

C.Baydenin bu cinayət dolu hərbi planı birbaşa Rusiyanı qəzəbləndirmək, onun qulağının dibində yeni cəbhə açıb Moskvaya meydan oxumaq, Rusiyanı yeni hərbi təxribatlara çəkib keçmiş sovet ərazilərində qanlı münaqişələri alovlandırmaqla, bölgədə xaos yaratmağa hesablanıb. Sən okeanın o tayından dur gəl, bir slavyan ölkəsində, Rusiyanın qulağının dibində ona qarşı cəbhə aç, minlərlə insanı yurd-yuvasından didərgin sal, yüzlərlə, minlərlə insanı qanlar içində məhv et, sonra da utanmadan demokratiya barədə danış. Əlbəttə, bu məsələdə Rusiya da günahkar və məsuliyyət daşıyan tərəfdir. Amma onu bu qanlı təxribata çəkən tərəf C.Baydenin ABŞ-ı oldu. Məhz qərb gücləri Rusiyanı zəif və zərif yerindən vurmaq üçün Ukrayna kartını işə saldılar. Bu gün ABŞ başda olmaqla xüsusilə İngiltərə və Almaniya daxil qərb müttəfiqləri açıq şəkildə olmasa da, amma hamının bildiyi şəkildə Ukraynada Rusiyaya qarşı vuruşurlar. Təkcə bu üç NATO supergücünün son 5-6 ay ərzində Ukraynaya ayırdıqları trilyon dollarlar, ən müasir silah və sursatlar deməyə əsas verir ki, qərb Rusiya ilə Avropa arasında yeni xəritəni çəkmək üçün bu müharibədə israrlıdır və Kursk hücum da bunun kulminasiya nöqtəsi oldu. Hər kəs gözəl anlayır ki, NATO supergücləri Vladimir Putinin əsəbləri ilə oynamaq və onu səhv etməyə sövq etmək üçün çırpınırlar. Onlar V.Putini qisas üçün qanlı əməliyyatlara sövq etmək istəyirlər. Lakin həm tarix, həm də siyasi reallıq onu deməyə əsas verir ki, nə V.Putin, nə də dərin Rusiya dövləti ABŞ-İngiltərə-Almaniya üçlüyünün oyununa gələsi qədər sadəlövh deyillər. Çox güman ki, V.Putinin Kursk hücumundan sonra öz planı var. Ukrayna uniformasında gizlənən qərbdəki rəqiblərini Rusiyanın içinə qədər çəkən Kreml rəhbəri, bununla həm bütün rusiyalılara müharibənin sərt üzünü göstərir, - bununla həm də daxili auditoriyada ən radikal addımlar atmaq üçün əsas yaradır - eyni zamanda, beynəlxalq ictimaiyyət qarşısında təcavüzə məruz qalan dövlət kimi sonrakı addımlarına haqq qazandırmaq üçün bəribaşdan "əlini gücləndirir". Lakin bütün hallarda V.Putinin bitdiyi, Rusiyanın diz çökdüyü barədəki xəyal dolu informasiyaların hava şarından başqa heç nə olmadığına əminəm. Keçmişdəki nənələr demişkən unutmayaq ki, Rusiyanın yarıdan çoxu, hələ "yerin altındadır"....

# Tərlan Əhmədov "Qarabağ", "Zirə" və "Sabah" FK haqqında NƏLƏRİ DANIŞDI?



"Qələbə gözlənilən idi, hamımız gözləyirdik ki, "Qarabağ" Futbol Klubu qələbə qazanacaq". Bu sözləri SİA-ya açıqlamasında keçmiş futbolçu və baş məşqçi Tərlan Əhmədov deyib. Tərlan Əhmədov sözlərinə belə davam edib: "Bəli, çətin olacağını bilirdik. Mən də müsahibələrimin birində demişdim ki, "Qarabağ" bu oyunda səhvsiz oynasa, müdafiədəki boşluğu düzəldə və hücumdakı aqressivliyi çoxalda bilsə qalib gələ bilər. Yəni buradakı oyunda hiss olunurdu ki, müdafiədə boşluqlar həddindən çox idi. Hansı ki komanda standart və əks-hücumda rəqib "Qarabağ"ı yaxalayıb qalibiyyət əldə etmişdi. Amma oradakı oyunda əlbəttə ki rəqib çalışacaqdı həm qol vursun, həm də qalibiyyəti saxlaya bilsin. Amma indi ilk dəqiqələrdə məcbur etdilər birinci topda rəqibin müdafiə xəttində səhvə yol verdilər. Yəni aqressivlik davam etdi. Amma sonra yenə gördüyünüz kimi müdafiədəki boşluqlar və "Qarabağ"ın boşluğu iki topun buraxılmasına səbəb oldu. İki top məğlub olduqları halda ikinci hissədə artıq demək olar ki, yavaş-yavaş "Qarabağ" oyunu öz üzərinə götürüb, təzyiq altında saxlayıb qolların davamını gətirdi və qalib gəldi. Bu da gözlənilən idi. İstər-istəməz hamımız bunu gözləyirdik, arzu edirdik və bilirdik ki, "Qarabağ"ın böyük təcrübəsi var. "Qarabağ"ın itirəcəyi bir şey yoxdur və bütün variantları istifadə edib. Mükəmməl oyundan "Qarabağ" qalib gəldi.

O ki qaldı "Zirə" və "Sabah"a açığı deyim ki, "Zirə" hər halda səfərdə heçheçə idi, artıq burada da ehtiyatlı olmalıdır. Yəni, belə oyunlarda arxayınlıq heç vaxt uğur gətirmir. Diqqətli olmaq lazımdır. Komanda özünə görə komandadır. İstər-istəməz çalışacaqlar ki, burada da uğurlu nəticə əldə etsinlər. "Zirə" hər halda öz oyununu oynasa düşünürəm ki, bu mərhələni keçəcək.

Açığı deyim ki, hər halda Xorvatiyanın "Osiyek" klubu indiki vəziyyətdə əvvəlki "Osiyek" deyil. Baxmayaraq ki, Konfrans Liqasında çıxış edirlər. Yəni hər halda "Zirə" və Rəşad Sadıqovun növbəti mərhələyə çıxması üçün şansdır. Yəni bundan maksimal istifadə olunmalıdır.

Bir balaca "Sabah"da məğlub olub. "Sabah" demək olar ki, çempionatda da uğursuz çıxış edib və bu baxımdan da istər-istəməz düşündürən məsələ odur ki, "Sabah" həm daxili çempionatda bir balaca axsaqlıq edir, həm də hansısa problemlər yaşayır və ilk oyunda da səfərdə 2-1 məğlub olub. Bu baxımdan komandada hansısa bir problem yaşana bilər. Ümid edək ki, "Sabah" da bu imtahandan üzü ağ çıxacaq. Yenə deyirəm belə oyunlarda çalışmalıdır komandalarda səhv minimuma ensin və hücum xəttində də aqressiv olunsun. Necə ki "Qarabağ" ikinci hissədə aqressiv oynayaraq rəqibi səhv etməyə məcbur etdi və hər hansı bir vəziyyətdən komandanın uğurlu nəticəsini əldə etmək üçün çıxış yolları tapmaq lazım idi. Bu baxımdan düşünürəm ki, hər halda bu oyunları analiz edirlər, rəqiblər artıq bir-birlərini aşağı-yuxarı tanıyırlar, hər halda komandalarımızın keçmək şansı böyükdür. Bundan sonra da Azərbaycan klublarından hansısa şikayət etmək, və yaxud da bizə zəif rəqib, və yaxud güclü zəif düşdü və s. artıq bunları biz unutmalıyıq. Biz artıq futbolun elə bir nöqtəsinə gəlib çatırıq ki, artıq nəticələr əldə olunmalıdır, qrup mərhələlərinə düşülməlidir. Yəni indiki məqamda bu şeylərə şans var. Çox rahat ardıcıllıqla gəlir, yəni qrupa düşmək üçün hər halda bunun üçün böyük bir proqram hazırlanmalıdır, işlər görülməlidir və komanda oyunu mükəmməl olmalıdır".

***Ayşən Vəli***

# "Avropada yaşayan azərbaycanlılar seçki prosesini qürurla izləyirlər"

*Niderlanddakı "Azərbaycan Evi" rəhbəri*



"Torpaqlarımızın 20 faizinin işğalda qalması səbəbindən uzun illər Qarabağ və ətraf rayonlarda seçki keçirə bilmirdik. Artıq Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa edib. Ölkəmiz öz tarixi torpaqlarında seçkilərin keçirməsi üçün hər cür şərait yaradır". SİA xəbər verir ki, bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Niderlanddakı "Azərbaycan Evi" diaspor təşkilatının rəhbəri Elxan Mirheşimli deyib.

O, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına seçki kimi mühüm siyasi prosesin qayıtmasına sevindiyini söyləyib: "Qarabağda və Şərqi Zəngəzurda irimiqyaslı bərpa və quruculuq işləri aparılır, məcburi köçkünlər öz torpaqlarına qayıdır. 30 illik Qarabağ həsrətinə son qoyulduqdan sonra, ilk dəfə bu torpaqlarda Prezident seçkiləri keçirildi. İndi isə Milli Məclisə seçkilər keçiriləcək. Bu tarixi addımı təqdir edirəm. Artıq yerli sakinlər öz seçki hüquqlarından doğma şəhərlərində və kəndlərində istifadə edəcəklər. Qarabağlılar deputatlarını bu dəfə fərqli mühitdə seçəcəklər. Bu, Azərbaycan dövlətinin və diplomatiyasının uğurudur. Biz, Avropada yaşayan azərbaycanlılar olaraq bu tarixi seçkiləri qürurla qarşılayırıq. Sentyabrın 1-də baş tutacaq seçkilərdə dövlətimizə, millətimizə uğurlar arzulayırıq".





**Elçin Bayramlı**

# Milli mənəvi deqradasiya güclənir: xilas yolu nədir?

Dövlət Statistika Komitəsinin açıqlamasına görə, bu ilin ilk yarısında 22250 nikah və 10430 boşanma halları qeydə alınıb. Bu 50 faizlik boşanma deməkdir və dünyada ən acınacaqlı vəziyyətlərdən biridir. Lakin problem təkcə boşanmalarla da bitmir. Evlənənlərin sayı da kəskin azalır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,8-dən 4,4-ə düşüb. Bu, açıq şəkildə ailə institutumuzun dağılması və milli genefondumuzun məhvə getdiyinin göstəricisidir. Bəs bu faciəvi vəziyyətin səbəbləri nədir, necə qarşısını almaq olar?

Həm boşanmaların ildırımsürətli artmasında həm də evlənmələrin kəskin azalmasında 2 əsas səbəbi var. Birincisi, mənəvi-psixoloji deqradasiya, ikincisi sosial-maddi problemlər.

Mənəvi deqradasiyanın səbəbi "müasirlik", "azadlıq" adı altında aparılan təbliğatlardır. Gənclərə təbliğ olunur ki, qətiyyən evlənməyin, karyera qurun və gələcəkdə (30-35 yaşda) evlənmə məsələsinə baxarsınız. Gənclərə daim əyləncə təbliğ olunur və onlara deyilir ki, evlənib ailəyə diqqət, qayğı göstərib pul xərcləməkdənsə, bunu özünüzə sərf edin. Yəni, gənclər eqoist bir əhval-ruhiyyədə formalaşdırılır. 20-30 ildir davamlı aparılan təbliğatın nəticəsi dəyərləri, düşüncələri çox mənfi istiqamətdə dəyişdirib və buna da heç kim "dur" demir. Bu işdə özəl televiziyaların əvəzolunmaz rolu var. Son dövrdə isə interneti və sosial şəbəkələri də bura aid etmək olar. Tanınmış və imkanlı müğənnilər, psixoloqlar bu istiqamətdə açıq aydın təbliğat, daha doğrusu psixotron terror kampaniyası aparırlar.

Boşanmaların əsas səbəbi bəzilərinin dediyi kimi, maddi problemlərlə bağlı yox, daha çox mənəvi deqradasiya ilə bağlıdır. Çünki 3 ciddi və təkzibolunmaz arqument maddi faktoru tamamilə təbzib edir;

Ən ağır sosial iqtisadi böhranlar, aclıq dövrlərində belə boşanmalar aşağı səviyyədə idi. Hazırda da imkanlı şəxslər arasında boşanmalar az imkanlı ailələr arasında olduğundan xeyli çoxdur. Dünyanın bütün maddi cəhətdən zəngin ölkələrində boşanmalar yüksək, yoxsul ölkələrdə çox aşağıdır.

Beləliklə, aydın olur ki, maddi çətinliklərin boşanmalarda rolu çox cüzü ola bilər. Bu, konkret olaraq, mənəvi böhranla bağlıdır. Lakin evlənmələrin azalmasında mənəvi böhranla yanaşı sosial problemlərin də ciddi rolu var. Yoxsulluq, işsizlik, evsizlik kimi sosial problemlər evlənmələrin kəskin azalmasına səbəb olur. Ölkədə iş yerlərinin az olması, mövcud iş yerlərində də maaşların aşağı olması gəncləri evlənməkdən çəkindirir. Üstəlik, bu gün Azərbaycanda gənclərin 90 faizinin ev almaq imkanları yoxdur. Ev ala bilməyəndə də bizdəki maaşla yalnız kirayə pulunu ödəmək mümkündür. Ona görə də, evi olmayan, tək özünü belə dolandıra biləcək qədər maaş ala bilməyən gəncdən evlənməyi gözləmək olmaz.

Bununla belə, bu, yeganə səbəb deyil. Mənəvi səbəblər də var. Bu gün "müasir" təfəkkürdə olan gənclər evlənmək istəmirlər, onlar eqoist əhvalda formalaşıb və yalnız öz əyləncələri üçün yaşamağa üstünlük verirlər.

Bununla da milli genefondumuza və ailə institutuna ciddi zərbə dəyir və biz həm mənəvi dəyələrimizi itiririk, həm də demoqrafik böhrana doğru gedirik. Evliliklərin azalması, ailələrdə uşaq sayının azalması, əhalinin sayında yaşlıların payını artırır, uşaq və gənclərin payını azaldır. Beləliklə, əhalinin qocalması, artımın dayanması baş verir və proses əksinə dönür.

Əhalinin azalması ciddi strateji təhlükədir, qarşısı alınmasa, bir neçə onillik sonra isə millət və cəmiyyət olaraq tarixdən silinib gedirsən. Bu səbəbdən bütün ölkələr, ailələrin artması, uşaq sayının çoxalması üçün çoxsaylı tədbirlər həyata keçirirlər. Ailə quranlara yardımlar, uşaqpulu, müxtəlif güzəştlər tətbiq olunur. Gənc ailələrə güzəştli şərtlərlə ev almaq imkanı yaradılır, çoxuşaqlı ailələrə özünüməşğulluq üçün təminatlar verilir.

Bizdə də artıq uşaq doğumu və ailə qurulması sayı kəskin azaldığı halda, bunun qarşısını almaq üçün heç nə etmirik. Üstəlik, evlənmələrin azalmasına və boşanmaların artmasına da hər cürə şərait yaradırıq. Ailələr üçün ciddi sosial dəstək yoxdur. Mənəvi dəyərlər əleyhinə təbliğat isə tam gücü ilə aparılır.

Bu iki səbəb aradan qaldırılmasa, tezliklə, ailə instutumuz tam dağılacaq, milli genefondumuz ciddi zədələnəcək, demoqrafik vəziyyət pisləşəcək. Dolayı yolla bu dövlətin sosial yükünü və iqtisadi problemlərini də artıracaq. Son nəticədə əhalinin azalması ilə millət olaraq yoxa çıxmaq və iqtisadi gücümüzü itirməklə qarşılaşacağıq.

Bu, strateji milli təhlükəsizlik məsələsidir. Düçar olduğumuz faciənin qarşısını almaq üçün mənəvi dəyərlərimiz əleyhinə təbliğat, psixotron terror dayandırılmalı, ailələrə sosial dəstək proqramları həyata keçirilməlidir. Başqa xilas yolu yoxdur.

# Piter Mixalkonun Əli Kərimlini danlaması təsadüfi sayıla bilməz

Azərbaycanın əldə etdiyi iqtisadi, siyasi, hərbi, diplomatik uğurları bəzi beynəlxalq təşkilatların, ayrı-ayrı ölkələrin erməni xisləti rəhbərlərinin ciddi narahatlığına səbəb olub. Ağrı-acıların ölkədaxili vəziyyəti gərginləşdirmək, Azərbaycanın beynəlxalq miqyasda imicinə xələl gətirməklə aradan qaldırmağa çalışırlar. Onlara bu məsələdə dərman rolunda sapı özümüzdən olan baltalar, o cümlədən AXCP sədri Əli Kərimli, Müsavat partiyasının sabiq və indiki sədrləri İsa Qəmbər və Arif Hacılı, Milli Şuranın rəhbəri Cəmil Həsənli və digərləri çıxış edirlər. Bu məxluqların tez-tez Azərbaycandakı beynəlxalq təşkilatların nümayəndələri və ya müxtəlif ölkələrin səfirləri ilə gizli görüşləri keçirilir. Lakin nə qədər görüşləri gizli təşkil etməyə çalışsalar da, sonda məsələ ictimaiyyətə bəlli olur. Avqustun 12-də Avropa İttifaqının Bakıdakı ofisində səfir Piter Mixalko, ofisin bəzi əməkdaşları və Aİ-yə daxil olan ölkələrin Azərbaycandakı səfirlərinin iştirakı ilə AXCP sədri Əli Kərimli, Müsavat Partiyasının sabiq və indiki sədrləri İsa Qəmbər və Arif Hacılı, həmçinin müxalifəti təmsil edən daha bir neçə şəxsin iştirakı ilə keçirilən görüşü də gizlətmək mümkün olmayıb. Yenə də görüş iştirakçıları ənənələrinə uyğun olaraq ölkəmiz haqqında hədyanlar səsləndirib, tənqidi xarakterli fikirlər ifadə ediblər. Yenə də əsas başçı rolunda Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko çıxış edib. Bu o Peter Mixalkodur ki, Azərbaycanda olduğu müddətdə işi, fəaliyyəti ancaq dağıdıcı müxalifətlə iş birliyinə getmək və onlara öz təlimatlarını çatdırmaq olub. Dəfələrlə onun AXCP sədri Əli Kərimli, Real partiyasının sədri İlqar Məmmədov, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbər və Arif Hacılı ilə gizli görüşləri və danışıqları olub. Növbəti görüş həftənin əvvəlində Avropa İttifaqının Bakıdakı ofisində keçirilib. Görüşdə Fransa və Niderlandın səfirləri xüsusi fəallıq göstərərək müxalifətin canlandırılması üçün tədbirləri gücləndirməyi tələb ediblər. Nə qədər anlaşılmaz olsa da, görüşdə ABŞ və Böyük Britaniyanın səfirləri də iştirak ediblər. Buna görə də görüş Aİ-Azərbaycan müxalifəti formatından kənar çıxıb. Həmçinin diqqəti cəlb edən məqamlardan biri də masanın üzərində Aİ bayrağı ilə yanaşı LGBT bayrağının qoyulması da olub. Üstəlik, P.Mixalko çıxışında irəli sürülən tələblər sırasında müxalifətin seksual azlıqların hüquqlarının müdafiəsi istiqamətində addımlar atmalı olduğunu diqqətə çatdırıb.

## Piter Mixalkonun və Cozef Borrellanın separatizmə dəstək vermələrinin gizli məqamları üzə çıxır

Görüşdə səfir Piter Mixalko dedi-qoduya daha çox üstünlük verib və dağıdıcı müxalifəti zəiflikdə, fəaliyyətsizlikdə qınayıb. Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrellenin dağıdıcı müxalifətdən narazı qaldığını açıq şəkildə ifadə edib. P.Mixalko bir qədər də dairəni geniş əhatə edərək bildirib ki, uzun illərdir ABŞ və Aİ müxalif qüvvələrin fəallığının təmin edilməsi, hakimiyyətə təsir və təzyiq imkanlarının gücləndirilməsi üçün dağıdıcı müxalifətə böyük vəsaitlər ayırıb. Bunun müqabilində isə cəmiyyətin narazı hissəsini arxasınca aparmalı olan müxalifət fəaliyyətini yalnız virtual məkanda replikalar paylaşmaqla, müxalifətçiliyi imitasiya etməklə məşğuldur. Hazırda sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkiləri ilə əlaqədar siyasi fəallığını yüksəltməli olan qüvvələr artıq bu imitasiyanı da lazımi şəkildə edə bilmirlər. P.Mixalkonun ermənipərəst mövqeyi və fəaliyyəti ilə seçilən Cozef Borrellenin dağıdıcı müxalifətdən



və onların trollarının fəaliyyətindən narazı qalması onu deməyə əsas verir ki, perspektivdə Əli Kərimlini, Cəmil Həsənlini, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbəri, Arif Hacılını, özünü qondarma "hüquq müdafiəçisi" kimi təqdim etməyə çalışan Rüfət Səfərovu, ABŞ-ın qaranlıq dairələrindən qidalanan "Toplum" TV -nin direktoru Xədicə İsmayılı və digərlərini ciddi maliyyə itkiləri gözləyir. Çünki P.Mixalkonun C.Borella adından xəbərdarlığı heç də təsadüfi sayıla bilməz. Təbii vəziyyət proqnozlaşdırıldığı kimi olsa, dağıdıcı müxalifətin qara günləri başlaya bilər. Ən azı xaricə çıxış imkanlarından, müəyyən məsələlərə dəstəkdən və qərəzli, qarayaxma xarakterli məlumatlarının xarici ölkələrin mətbuat səhifələrində işıq üzü görmələrindən məhrum ola bilərlər. Ona görə də, ehtimal etmək olar ki, dağıdıcı müxaliflər xəbərdarlıqdan nəticə çıxararaq yaxın vaxtlarda, xüsusilə də parlament seçkiləri günü və seçkidən sonra geniş iğtişaşlar törədə, polislə qarşıdurmalar yarada bilərlər. P.Mixalkonun görüşdə Gürcüstan müxalifətini və vətəndaş cəmiyyətini nümunə olaraq göstərərək Əli Kərimlini, Cəmil Həsənlini və digərlərini hədələməsi təsadüfi sayıla bilməz. O bildirib ki, Azərbaycana və Gürcüstana ayrılan vəsaitlərin həcmi eyni olsa da, qonşu ölkədə vətəndaş cəmiyyəti hakimiyyətə çox ciddi təsir etmək və iqtidarı sarsıdacaq addımlar atmaq imkanlarına malikdir.

Diqqətçəkən məqam ondan ibarətdir ki, görüşdə müqəssir kimi başlarını aşağı salıb susan dağıdıcı ünsürlər, sadəcə, vəziyyətdən çıxmaq üçün bildiriblər ki, ABŞ və Aİ-nin dəstəyi olmasa, müxalifət öz mövcudluğunu qoruyub saxlaya bilməz. Eyni zamanda, fasiləsiz maliyyə yardımının daxil olmasına baxmayaraq, ölkədə mövcud mühit siyasi fəallığa və real nəticələr göstərməyə imkan vermir. Qeyd olunub ki, müxalifətin, TV-lər də daxil olmaqla, mediaya çıxışı yoxdur, sosial media vasitəsilə ciddi nəticələr əldə etmək mümkün deyil, aksiyaların keçirilməsinə imkan verilmir və s. Üstəlik, Qərbin maliyyə dəstəyi də dayanarsa, bu, Azərbaycanda müxalifətin sonu demək olacaq.

## Əli Kərimli və Cəmil Həsənli Mixalkonu necə razı sala bildilər?

Maraqlı məqam ondan ibarətdir ki, Əli Kərimlinin, Cəmil Həsənlinin ağlayıb, sızlamaları P.Mixalkonun daş qəlbini yumşalda bilib. O, maliyyələşmənin davam etdirilməsi üçün müxalifətin qarşısına qoyulan tələbləri səsləndirib. Bildirib ki, hazırkı seçki dövrünün açdığı imkanlardan istifadə edərək kütləvi tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, müxalifət regionlardakı durumu düzgün qiymətləndirməli, şəhər və rayonlar-



da öz bazasını səfərbər etməli və paytaxt da daxil olmaqla, kütləvi aksiyaların təşkilinə və keçirilməsinə başlamalıdır. P.Mixalko zəruri hallarda müxalifət iğtişaşlardan da çəkinməməli və qarşıdurmaya getməyi bacarmalıdır. Məsələn, bu və ya digər məsələdən narazı olan kütlə tərəfindən etiraz əlaməti olaraq regionlarla Bakı arasında əsas yolların bağlanmasını təşkil etmək mümkündür.

P.Mixalko gənclərin bu prosesə cəlb edilməsinin vacib olduğunu deyib, kiçik multimedia qruplarının yaradılmasını, onların ölkə üzrə bütün neqativ halları qeydə alması və paylaşmasını təklif edib. Əvvəlki illərin təcrübəsindən çıxış edərək Aİ ofisinin rəhbəri abidələrin, heykəllərin boya ilə rənglənməsinin, tələblərin əks etdirilməsinin də etiraz üslubu olduğunu xatırladıb.

Bildirilib ki, etirazların təşkil olunması üçün kifayət qədər səbəb və mövzu da var: uşaqpulu, qazilərin sosial durumu, bahalaşma, korrupsiya, Qarabağın bərpası prosesində vəsaitlərin sərfiyyatının şəffaf olmaması və s. P.Mixalkonun sözlərinə görə, indiki seçkilərdən sonra Azərbaycan COP29-a ev sahibliyi edəcək. Bu tədbir cəmiyyəti silkələmək, ayağa qaldırmaq üçün əlverişli şərait yaradır. Bütün bunları təşkil etmək üçün müxalifətin fəaliyyət proqramı olmalıdır və bu proqrama uyğun da tədbirlər həyata keçirilməlidir. Əsas vəzifə COP29-u mümkün qədər siyasiləşdirmək və beynəlxalq ictimaiyyətin diqqətini bu mühüm tədbiri keçirən ölkədə mövcud problemlərə cəlb etməkdir.

## C.Borrellanın utancverici əməli təbliğ edilir

Dəfələrlə sübuta yetirilib ki, C.Borrelli ermənipərəst dairələrdən sifarişlər alır və bu sifarişləri yüksək tribunalardan səsləndirir. Bu məxluq o məxluqdur ki, Azərbaycanın 44 günlük Vətən Müharibəsində əldə etdiyi parlaq qələbəyə qısqanclıqla yanaşmış və ermənilərin himayədarı kimi ölkəmizə qarşı şər və böhtanlar səsləndirmişdir. Hətta başından böyük iddialarla çıxış edərək bildirmişdir ki, əgər Azərbaycan Zəngəzur dəhlizinə ordu yeridərsə, Avropa İttifaqı buna dözməyəcək. C.Borrell Aİ missiyasının Ermənistana göndərilməsi, onun hərbiləşdirilməsi və Qarabağ ermənilərinin müdafiəsi istiqamətində atılan addımların əsas təşəbbüskarı olub, Azərbaycan ərazilərini tərk edən ermənilərin sayını qəsdən şişirdərək 150 min nəfər kimi qeyd edib. Həm xarici, həm də Azərbaycan mediasında C.Borrellin tərcümeyi-halı, fəaliyyəti və hazırkı mövqeyinin səbəbləri ilə bağlı çoxsaylı materiallar verilib. Qeyd edilib ki, C.Borrell separatçı Kataloniyanın Pobla de Segur kəndində anadan olub və bu bölgənin bir gün azad ola biləcəyi arzusu ilə yaşayıb. O, 1974-cü ildə İspaniyanın Sosialist Fəhlə Partiyasına üzv olub və Kommunist İnternasionalının ideyalarını bölüşüb. 1986-cı ildə Barselona əyalətindən İspaniya parlamentinə seçilən Borrel 2004-cü ildə Avropa parlamentində kürsü əldə edib və "Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı"nın boz kardinalı hesab olunur. Avropa Parlamentinin Azərbaycana qarşı fəaliyyətində bu fraksiyanın və şəxsən Borrellin ciddi rolu var. Onun fəaliyyəti qalmaqalsız olmayıb: 1982-1987-ci illər arasında vergi bəyannamələrini təqdim olunmaması izahı ilə külli miqdarda gəlir əldə edən Borrell qadın "Flamenqo" ifaçısı Lola Floresə qarşı seksual təzyiq göstərib və bu, Madrid məhkəməsi tərəfindən təsdiqlənib. Məhz bu kimi faktlara istinad edən İngiltərənin tanınmış blogeri Mark C.Borrelli məişət pozğunu adlandırıb. İsrailin maliyyə naziri isə bildirib ki, C.Borrelli dünyada terroru dəstəkləyən və maliyyələşdirən əsa şəxslərdəndir. Nazir bu şəxsin həbs edilərək ədalət məhkəməsi qarşısına çıxarılmasının vacibliyin bildirib.

## C.Borrelli özü birbaşa Azərbaycana qarşı iddialarla çıxış etməkdən imtina edərək P.Mixalko kimi "peşka"ları irəli verib

O ki qaldı C.Borrellinin Azərbaycana qarşı zamanında səsləndirdiyi iddialı yanaşmalarına, bildirmək lazımdır ki, Azərbaycanın qarşısını heç bir qüvvə ala bilməz. İstənilən vaxtı, istənilən hədəfi sıradan çıxararaq məqsədinə nail ola bilər. Görünür, bunu baş düşdüyündən sonrakı mərhələ də C.Borrelli özü birbaşa Azərbaycana qarşı iddialarla çıxış etməkdən imtina edərək P.Mixalko kimi "peşka"ları irəli verib. P.Mixalkonun dağıdıcı müxaliflərlə görüşündə bu məsləyə xüsusi önəm verməsi C.Borrellaya dəyən şillənin ağır olduğunu göstərir. P.Mixalko bildirib ki, Aİ Xarici əlaqələr komitəsi hazırda Azərbaycanın Ermənistana təzyiqlərindən, Aİ-nin regiondakı siyasətinə və ələlxüsus da Ermənistandakı missiyasına kəskin münasibətindən, Qarabağ ermənilərinin geri dönməsi məsələsində mövqeyindən bərk narahatdır. O, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrellin sözlərini çatdıraraq deyib ki, müxalifət bu məsələlərdə xüsusi fəallıq göstərməli, hakimiyyətə maksimum təzyiq göstərməli, onun yumşalmasına və geri çəkilməsinə nail olmalıdır.

Bütün bu kimi görüşlər onu deməyə əsas verir ki, xarici işbazlar Azərbaycanın möhtəşəm qələbələrindən ciddi narahatlıq keçirir. Əli Kərimli, Cəmil Həsənli kimi trollardan istifadə etməklə parlaq zəfərlərə kölgə salmağa çalışırlar. Lakin onların xəyalları və arzuları puç olacağı şübhəsizdir. Çünki Azərbaycan güclü və qüdrətli dövlətdir, hər hansı bir yerli və xarici trol dəstəsi bu gücə zərər yetirmək imkanına malik deyil. Olsa-olsa hay-küyləri mənasız vızıltı ola bilər ki, bu vızıltını da milçəklər, ağcaqanadlar onsuz da hər zaman edirlər.

**İLHAM ƏLİYEV**

# İsrailli politoloqdan təxribatçı erməniyə ağır cavab

## Erməni aparıcı İsrail politoloquna verdiyi yersiz suala görə peşman oldu

Son bir neçə gündür ki, Ermənistanın istər hakimiyyət, istərsə də müxalif media orqanları, politoloqları, habelə sosial şəbəkələri guya Qarabağda İsrailə məxsus hərbi bazaların mövcudluğu ətrafında hay-həşir salır, İran-İsrail qarşıdurmasında qonşu İranı Azərbaycana qarşı kökləməyə, bu vasitə ilə regiondakı sabitliyi pozmağa cəhdlər göstərirlər. Onlar tamamilə fərqli informasiya qismində yayılan xəbəri necə deyərlər, feyk halına salaraq "həqiqət" kimi göstərməyə çalışmaqla saxta və təxribat məqsədli hansısa "İsrail media qurumuna" "istinad" olaraq göstərirlər. Daha dəqiq desək, İsrailin öz hərbçilərini "Azərbaycan və Gürcüstandan" çıxma "çağırışları" ətrafında, sözün əsl mənasında, oyunbazlıq sərgiləyirlər.

Qeyd edək ki, İsrail Knessetinin sabiq deputatı Aleksandr Sinker erməni aparıcı Nver Mnasakyanın mövzu ilə bağlı sualına cavab deyil, zərbə endirib və yalan informasiyanı ifşa edib. Məhz bu baxımdan, müsahibənin həmin hissəsini təqdim edirik:

Mnatsakyan: Belə bir qiymətləndirmə var ki, İsrail yerüstü əməliyyatlar üçün Azərbaycanın ərazisindən istifadə edə bilər. Burada əsasən Qarabağ isti-



qaməti nəzərdə tutulur və bu, nə qədər mümkündür?

Sinker: Mən başa düşmədim, niyə məhz Qarabağ? Necə yəni, orada İsrail ordusu dayanıb ki?

Mnatsakyan: Hə, orada hansısa obyektlər var.

Sinker: Mən bunu sizdən ilk dəfədir eşidirəm. İsrail ordusu yalnız İsrailin ərazisində mövcuddur. Azərbaycanda hansısa israilli məsləhətçilər ola bilərlər və bu da ölkələr arasındakı ticari əlaqələrlə bağlı mümkündür, lakin Azərbaycanın ərazisindən İrana hücum etmək... İnanmıram ki, Azərbaycanın özü buna icazə versin, üstəlik, orada heç bir İsrail vasitələri də yoxdur ki, iranlılar onlara hücum etsin. Mən İsrailin Azərbaycan üzərindən İrana hücum edəcəyi ətrafında gəzən məlumatlara inanmıram.

Mnatsakyan: Axı İsrail öz hərbçilərinin Azərbaycandan geriyə dönmələri ilə bağlı çağırış edib.

Sinker: Bu, belə səslənməyib. Deyilib ki, müxtəlif səbəblərlə Azərbaycanda və Gürcüstanda məzuniyyətdə, yaxud hansısa digər işlərlə bağlı olan İsrailin hərbi mükəlləfiyyətli vətəndaşları geriyə dönməlidirlər. Orada hansısa hərbçilərin olması barədə mən eşitməmişəm.

Və ən maraqlısı budur ki, orada Ermənistan göstərilməyib və mən belə düşünürəm ki, bu ona görədir ki, onlar İsraillə Ermənistan arasındakı münasibətlərin aşağı səviyyədə olduğunu düşünürlər. Hakimiyyət hesab edir ki, ora çox cüzi şəkildə səfərlər ola bilər.

***Afət Tahirqızı***

***P.S. Beləliklə, müsahibədən də göründüyü kimi, hər hansı bir informasiyanı feyk şəklinə salıb suyu bulandırmağa cəhd edən erməni jurnalistinə kifayət qədər lazımi cavablar verilib və onun susmaqdan başqa heç bir çarəsi qalmayıb. Daha doğrusu, israilli siyasətçi və Knessetin sabiq deputatı Sinker Mnatsakyanı verdiyi sualına görə peşman edib.***

# COP 29 Konfransı Azərbaycan üçün tarixi simpoziumdur






## TÜRK POLİTOLOQDAN AÇIQLAMA

"COP 29 Konfransı Azərbaycan üçün tarixi simpoziumdur". Bu sözləri SİA-ya açıqlamasında türk politoloq Hakan Aktürk deyib. Hakan Aktürk sözlərinə belə davam edib: "Məlumdur ki, COP29 Azərbaycanda da bu il həyata keçiriləcək. Bu məsələ ilə bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilən Baş Assambleyasında qəbul edilib.

Azərbaycan indiyədək bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib və onların öhdəsindən uğurla gəlib. Lakin Prezident İlham Əliyevin dediyi kimi, COP29-u indiyədək keçirilən tədbirlərlə müqayisə etmək olmaz. Bakı iki həftə ərzində dünyanın mərkəzi olacaq və şəhər təxminən 70-80 min xarici qonağı qəbul edəcək. BMT-nin



İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası 1992-ci ilin iyununda Rio-de-Janeyroda keçirilən Yer Sammitində təhlükəli insanların qarşısının alınması üçün imzalanmış sazişdir. COP (Tərəflərin Konfransı) abbreviaturası Tərəflərin Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının həyata keçirilməsinə nəzarət edən ən yüksək qərar qəbul edən orqandır.

Tədbirin Azərbaycanda keçirilməsi qərarı həm də Azərbaycanın yerli antiterror tədbirlərindən iki ay yarım sonra qəbul edilməsi baxımından əhəmiyyətlidir. Bu, dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımları dəstəklədiyini göstərir. Bu hadisə bütün dünyaya sübut edəcək ki, Azərbaycan neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyata prioritet sahə kimi baxır. Tədbirin Bakıda təşkili Azərbaycanın nüfuzunun daha da artmasına, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə birbaşa və asanlıqla çatdırılmasına böyük təkan verəcək".

***Ayşən Vəli***



# Şəhidləri necə yaşadırıq?..

**MƏTANƏT**

***Kimdir şəhid? Həyatını Vətən, torpaq uğrunda qurban verən vətəndaş. Gəncliyindən, ömründən, arzularından keçən Vətən övladı. Qorxmaz, sinəsini irəliyə verməyə cəsarəti olan, ölümün gözünün içinə dik baxa bilən cəsur igid, ərdir, şəhid. Şəhidliyi ilə ölməyən, daim məxsus olduğu ölkənin səmalarında dolaşan, hər kəsdən ucada dayanan ucalıqdər şəhid. Bir an belə unudulmayan, yaddan çıxmayan, hər zaman böyük qürurla anılan, haqqında dastanlar yaradılmalı, kitablar yazılmalı, filmlər, tamaşalar çəkilməli olan Vətən oğlu, qızıdır, şəhid.***

Biz Azərbaycan xalqı olaraq az şəhid görməmişik. Elə ötən bir qərinəlik dövrə nəzər salsaq, görərik ki, çoxsaylı şəhidimiz olub. Qarabağın qara bəxtini ağ rəngə çevirmək üçün düz iki müharibə yaşamalı olmuşuq: Birinci və İkinci Vətən müharibələri. Biri 30 ilin o başında, biri bu başında. Birinci Vətən müharibəsi minlərlə igidimizin şəhid olması ilə nəticələndi. Əvəzində isə Qarabağı azad edə bilmədik, torpaqlarımız işğal altında qaldı. Çünki ordumuz təkmil şəkildə deyildi, ozanamı hakimiyyət isə səriştəsizdi. İkinci Vətən müharibəsinin şəhidləri kim idi? Birinci Vətən müharibəsində iştirak edən şəhidlərimizin övladları idi bu oğullar. Onların nəvələri, qohum-əqrəbaları idilər. 30 il ürəyində düşmənə kin gəzdirən, torpaq adı gələndə başlarını dik tuta bilməyən, "işğalda torpaqlarımız var",- deyib narahatlıq keçirənlər idilər. Bu namus, qeyrət işini bir an öncə dəliqanlı kimi həll etmək, qələbə əzmini bu xalqa yaşatmaq istəyənlər idilər. 30 ilin bütün acısını, 30 ilin əvvəlindəki şəhidlərimizin qisasını almaq istəyənlər, ərazi bütövlüyümüzü təmin etmək istəyənlər idilər...

Bu istəklə, amalla düz 44 gün sinəsini düşmənə sipər edən övladlarımızdan yüzlərlə şəhid oldu. Onlar torpağımızı, ərazi bütövlüyümüzü, qeyrətimizi, namusumuzu, şərəfimizi bizə qaytardılar. Lakin özləri arxada qoyub getdikləri sevdiklərinin yanına qayıda bilmədilər. Vətən, torpaq sevgisi bütün sevgiləri üstələdi. Onlar sinəsi dərdli, ürəyi yaralı Qarabağın 30 illik çarəsi tapılmayan dərdinə çarə oldular. Qarabağ xəstəliyinin, mərəzinin həkimi oldular. 30 il didərginlikdə yaşayanların sınıq qəlbinin həkimi, təbibi oldular. Sağalmayan 30 illik yaralara məlhəm oldular. Sağaltdılar Qarabağı da, qarabağlıları da şəhidlər.

44 günlük Vətən müharibəsinin fədailərinə çevrildilər. Payızın sazaq-soyuğunda Vətənin səsinə səs verib Qarabağa yollandı igidlərimiz. Ali Baş Komandanımızın əmrinə müntəzir olub böyük bir taktika ilə cəmi 44 günə torpaqlarımızı azad etdilər. Biz 44 gündə yenidən şahidi olduq ki, Vətən üçün əsl övlad, əsl vətəndaş böyüdüb, tərbiyə edə bilmişik. Çünki yüzlərlə şəhidimiz oldu. Şəhid isə o yerdə olur ki, orada Vətənə layiq övladlar, vətəndaşlar olur. Orada Zəfər qazanılır və hər yerdə Zəfər bayrağı dalğalanır. Bəs belə isə, biz şəhidlərimizi necə yaşadırıq? Tək anım günündə onları anmaqlamı? Doğum günlərində xatırlamaqlamı? Bunlar həyatı bizlər üçün ölümün qarşısına qoyanlar üçün yetərlidirmi?

Demirəm onlar haqqında kitablar yazılmayıb, filmlər çəkilməyib, şeirlər misralara düzülməyib. Lakin bunlar o qədər azdır ki, belə qənaətə gəlmək olur ki, yox dərəcəsindədir. Bizim elə şəhidimiz var ki, onun haqqında hələ bir cümlə belə yazılmayıb. Belə yaşadırıqmı şəhidlərimizi?..

Bu, elə bir mövzudur ki, bir an belə unutmağa haqqımız yoxdur. Hanı bəstəkarlar, rejissorlar, yazıçılar, şairlər? Nə üçün şəhidlərimiz, onların döyüş yolu, qəhrəmanlığı haqqında filmləri görə bilmirik? Nə üçün şəhidlərlə bağlı, onların Qarabağın ayrı-ayrı bölgələrində hünərindən bəhs edən mahnılar dinləyə, kliplər izləyə bilmirik?

Nə üçün bu qədər şəhidi olan xalqın minlərlə oğlundan yalnız bir neçəsi haqqında kitab yazılıb, film çəkilib, mahnı bəstələnib? Bəs o birilər? Onlar haqqında nə vaxt? Axı bu, hər bir yazıçı, şair, rejissor, bəstəkarın borcudur. Onların ailələri, dost-tanışları, sinif, tələbə yoldaşları ilə görüşüb haqlarında xatirələrin danışa biləcəyi kitablar yazmaq, filmlər çəkmək, tamaşalar hazırlamaq, mahnılar bəstələmək olar. Bunlar isə doğum günü ilə anım günündə xatırlanan şəhidlərimizə sevginin göstəricisi ola bilər. Və həm də gənc nəslin vətənpərvər böyüməsinə əsas yaradar. Belə isə hələ də gec deyil. Allah şəhidlərimizə rəhmət etsin! Onlar bizim qürurumuzdur.

# Hiperaktiv uşağı necə tanıyaq?

***Hiperaktivlik qeyri-adi aktiv və ya qeyri-normal aktivlik vəziyyətidir. Yəni uşaqların özünü idarə edə bilmədiyi psixoloji xəstəlikdir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

DEHB (diqqət çatışmazlığı hiperaktivlik pozuqluğu) olan uşaqlar diqqət yetirməkdə və ya hərəkətsiz dayanmaqda çətinlik çəkə bilərlər. Bu uşaqlar təkcə evdə deyil, məktəb həyatında da problemlərlə üzləşə bilər.

DEHB uşağın hiperaktivliyindən asılı olaraq müxtəlif hərəkətlərə səbəb ola bilər. Məsələn, hiperaktivliyi olan uşaqlar digər uşaqlarla müqayisədə dostluq etməkdə çətinlik çəkə bilərlər. Bu xəstəliyi olan uşaqların konsentrasiyası və hadisələrə reaksiyaları digər uşaqlarla müqayisədə olduqca fərqlidir. Onlar müəllimlərinin verdiyi suallara əl qaldırmadan birbaşa cavab verə bilir.

Onlar unutqan ola bilərlər, çünki diqqətləri çox asanlıqla dağılır. Ümumiyyətlə xəyal qurmağa meyllidirlər. Əşyalarını itirə və ya tapşırıqları yerinə yetirməkdə çətinlik çəkə bilərlər. Çox danışa və ya fərqində olmadan insanların sözünü kəsə bilərlər.

Ara-sıra bu tip davranışlara yol verən uşaqlar ola bilər, lakin onları hiperaktivliyi olan uşaqlarla qarışdırmaq olmaz. DEHB (diqqət çatışmazlığı hiperaktivlik pozuqluğu) olan uşaqlar bu davranış modelini daim davam etdirirlər. Bu vəziyyət həm məktəbdə, həm də ev həyatında müxtəlif problemlər yaradır.

DEHB olan uşaqlarda tez-tez narahat, əsəbi, qəzəbli və kədərli əhval-ruhiyyə müşahidə oluna bilər. Ancaq unudulmaması lazım olan ən vacib məqamlardan biri də bunun müalicə edilə bilməsidir.





Hiperaktivliyin ümumi xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- sabit hərəkət
- aqressiv davranış
- impulsiv davranış
- diqqət dağınıqlığı

Hərəkətsiz qalmaq və ya diqqətinizi cəmləmək üçün mübarizə aparırsınızsa, nəticədə sizdə başqa problemlər yarana bilər. Məsələn:

- məktəbdə və ya işdə çətinliklərə səbəb olur
- dostlar və ailə ilə münasibətləri gərginləşdirir
- qəzalara və xəsarətlərə səbəb olur
- alkoqol və maddə asılılığı riskini artırır

Hiperaktivlik tez-tez əsas psixi və ya fiziki sağlamlıq vəziyyətinin əlamətidir. Hiperaktivliklə əlaqəli əsas şərtlərdən biri diqqət çatışmazlığı hiperaktivlik pozuqluğudur. DEHB sizin həddindən artıq aktiv, diqqətsiz və impulsiv olmağınıza səbəb olur. Adətən gənc yaşda diaqnoz qoyulur. Ancaq bəzi insanlara ilk dəfə yetkinlik dövründə diaqnoz qoyula bilər.

Hiperaktivliyi müalicə etmək olar. Ən yaxşı nəticələr üçün isə erkən diaqnoz və müalicə vacibdir. DEHB olan uşaqlar diqqət yetirməkdə və oturacaqlarında hərəkətsiz qalmaqda çətinlik çəkirlər və onlar impulsiv ola bilərlər, bu da nəticələrini düşünmədən hər şeyi etmək deməkdir. Bu, yaralanma kimi problemlərə səbəb ola bilər. DEHB olan bəzi uşaqlar məktəbdə çətinlik çəkə bilər. Bəziləri dostluq etməkdə çətinlik çəkə bilər.

DEHB bir uşağın doğulduğu bir şeydir. Qrip kimi başqalarından keçə bilən xəstəlik deyil. Əgər uşağın DEHB olan qohumu varsa, onların DEHB ilə doğulma ehtimalı daha yüksəkdir.

**Həkim-pediatr Ülkər Quliyeva:** "Hiperaktivlik pozğunluğu, diqqət əksikliyi uşaq doğulandan olur. Bu adətən 3-4 yaşlarında nəzərə çarpır və 7 yaşına kimi özünü biruzə verir.



Hiperaktivlik itmir və 18yaşa kimi davam edə bilir. Əgər bir uşağın belə bir qohumu varsa, həmin ailədə hiperaktivlik pozğunluğu ilə doğulmaq şansı olan uşağın dünyaya gəlmə riksi daha yüksəkdir.

Hiperaktivlik pozğunluğu olan uşaqlar hansısa nəticəni düşünmədən, gözləmədən nə isə edə bilirlər. Hətta hiperaktivlik pozğunluğu olan bəzi uşaqlar bağça və məktəbdə (kollektivdə) də çətinliklər çəkə bilir. Belə uşaqlarda diqqət problemləri, oturmaq çətinlikləri, növbələrini gözləməkdə çətinlik çəkmələri müşahidə olunur. Məsələn, hiperaktivlik pozğunluğu olan məktəblilərin əksəriyyəti digər yoldaşlarının növbələrini gözləmədən, əllərini qaldırmadan elə yerlərindəcə cavabları uca səslə deyə bilirlər. Oturduqları yerdə çox hərəkətli olurlar, çox gəzirlər, çox danışırlar və s. Belə hallar həm evdə, həm məktəbdə (kollektiv və cəmiyyətdə) çətinliklərin yaşanmasına səbəb ola bilər.

Hiperaktivlik pozğunluğu olan uşaqlar narahat, əsəbi və qəmgin olurlar. Hər bir valideyin bilməlidir ki, hiperaktivlik pozğunluğu müalicə olunandır. Tibbi bir xəstəlik və ya sindrom deyildir! Sadəcə belə halda ilk addım vaxtında həkim-pediatra və ya sahə həkiminə müraciət etməkdir. Həkim daha sonra uşağı psixoloq, psixiatr kimi mütəxəssisə yönəldirə bilər.

Müsbət nəticə almaq isdəyiriksə, mütləq birlikdə yəni valideyinlər, müəllimlər, terapist və həkim komanda şəklində çalışmalıdır. Burada müalicə dərmanlarla deyil, əsasən psixoterapiya ilə aparılmalıdır.

Vaxtında psixoloji dəstək olmasa, bu bir sıra izlər qoyur. Belə ki, əsəb gərginliyi, depresiyaya meyillilik, stress və bu kimi faktorlarla özünü göstərəcək".

**Psixoloq Leyla Əli:** "Diqqət Əksikliyi və Hiperaktivlik pozuntusu uşağın gündəlik fəaliyyətinə və inkişafına əhəmiyyətli dərəcədə mane olan davamlı diqqətsizlik, hiperaktivlik və impulsivlik nümunələri ilə xarakterizə olunan neyroinkişaf pozuntusudur.



Psixoloq diqqət əksikliyi və hiperaktivlik pozuntusunun simptomlarına da diqqət çəkib: "Simptomlar adətən uşaqlıq dövründə müşahidə olunur, müdaxilə edilmədikdə isə yeniyetməlik və yetkinlik dövründə də davam edir.DƏHP bütün dünyada uşaqların təxminən 5-10% -ni təsir edir və oğlanlarda qızlara nisbətən daha çox rast gəlinir. Diqqət əksikliyi və hiperaktivliyin əsas əlamətləri: Diqqətləri çox asanlıqla dağıla bilər; Başladıqları işi bitirməkdə çətinlik çəkərlər; Ani hərəkət edərlər; Səbrsizdirlər; impulsiv davranış sərgiləyirlər; Danışıqları tez-tez kəsintili olur; Planlama və təşkilatçılıq zəifdir. DƏHP-nin səbəbi tam olaraq bilinmir. Ancaq genetik faktorların beyindəki bio kimyəvi pozuntusu hamiləlik və hamiləlikdən sonrakı problemlərdən ətraf mühitin qidalanmanın təsirindən ola biləcəyi düşünülür. Bu hal tam olaraq müalicə olunmayan durumdur. Əlamətlərini zəiflətməyə kömək edən müalicə metodları var. Bu metodlar arasında medikomentoz müdaxilə,terapiyalar və davranışla iş mühüm yer tutur".

## Hiperaktivliyin (DEHB) simptomları hansılardır?

DEHB uşaqların müxtəlif yollarla hərəkət etməsinə səbəb ola bilər. DEHB olan bir çox uşaq konsentrasiya və diqqəti toplamaqda problemlər yaşayır. Bəziləri hələ də sinifdə oturub öz növbəsini gözləməkdə çətinlik çəkə bilər. Onlar cavabları digər uşaqlar əllərini qaldırmağa fürsət tapmamışdan əvvəl deyə bilərlər.

*Ardı səh. 11*



# Hiperaktiv uşağı necə tanıyaq?

Əvvəli səh. 10

Bəzən onlar nizamsız, diqqətsiz və ya unutqan ola bilərlər. Sinifdə xəyal qurmağa meyllidirlər. Əşyalarını itirə və tapşırıqları yerinə yetirməkdə çətinlik çəkə bilərlər. Onlar oturacaqlarında çox hərəkət edə, çox danışa və ya başqalarının söhbətlərini kəsə bilərlər.

Yadda saxlamaq lazımdır ki, hər kəs bu işləri arada bir edir. Əgər bəzən bunları edirsinizsə, bu, sizdə DEHB (diqqət çatışmazlığı hiperaktivlik pozuqluğu) olduğunu bildirmir. DEHB olan uşaqlar tez-tez bu problemlərlə üzləşirlər. Bu onlara həm evdə, həm də məktəbdə problemlər yarada bilər.

Valideynlər və müəllimlər uşaqda DEHB (diqqət çatışmazlığı hiperaktivlik pozuqluğu) olduğundan şübhələndikdə ilk addım həkimə müraciət etməkdir. Həkim daha sonra uşağı psixoloq, psixiatr və ya pedaqoq kimi bir mütəxəssisə göndərə bilər. Onlar DEHB və digər davranış problemləri olan uşaqları tanıyan mütəxəssislərdir. Həkimin işinin bir hissəsi DEHB-yə bənzəyən, lakin müxtəlif müalicə növlərinə ehtiyacı olan digər xəstəlikləri yoxlamaqdır.

İndiki vaxtda diqqəti cəmləməkdə çətinlik çəkən, impulsiv olan, nizamsız hiperaktivliyi olan uşaqlarda tez-tez hiperaktivlik diaqnozu qoyulur. Hiperaktivlik və diqqət çatışmazlığının səbəbləri haqqında çox yazılıb. Müalicə prosesində dərmanların tez-tez istifadəsi məsələnin müzakirə olunan digər tərəfidir. Bununla belə, hiperaktivliyin və diqqət çatışmazlığının diaqnostikası və müalicəsi bütöv bir yanaşma ilə aparılmalı və təqib edilməli və dərman müalicəsi son çarə kimi qəbul edilməlidir.







## Hiperaktivliyin müalicəsi

Dərman müalicəsi problemin görünən üzünü həll edir və əsas çatışmazlığı maskalayır. Uşaq və ailə bu problemin fiziki pozğunluqdan qaynaqlandığına özlərini inandırır və bununla onların sağalma ümidləri azala bilər. Beləliklə, uşaq öz iradəsindən və ailə dəstəyi ilə özünü idarə etmə imkanından uzaqlaşdırılır.

## Sərbəst buraxıla bilməyən duyğular da səbəb olur

Tədqiqatlar göstərir ki, hiperaktivlik hallarının yalnız 5% -i nevroloji pozğunluqlarla əlaqələndirilir. Hiperaktivlik probleminin ağrılı duyğuları buraxa bilməməkdən qaynaqlandığı düşünülür. Ağlamaq və gülmək özünü şifahi şəkildə ifadə edə bilməyən körpənin duyğularını ifadə etmə üsuludur. Körpələr özlərini yaxşı və təhlükəsiz hiss etdikdə gülürlər. Hər hansı bir mənfi emosiya hiss etdikdə isə ağlayır. Ancaq valideyn üçün körpəsinin ağladığını görmək çətin olduğu üçün dərhal onu qucağına alır, silkələyir və ya əmzik verir. Nəticədə ağrılı emosiya yaşamaq ərəfəsində bilmədən hərəkətə keçməyə şərtlənən uşaqlar və nə edəcəyini bilməyən çarəsiz valideynlər meydana çıxır.



## Körpənin ağlamasına icazə verin

Duyğularını ifadə edə bilməyən körpələr əmzik kimi stimullarla qarşılaşırlar. Daha əvvəl ağrı kimi neqativ emosiyaya məruz qalmadığı üçün onunla necə davranacağını bilmir. Bu uşaqlarda hiperaktivlik (yaxud barmaq əmmə, dırnaq yemə) emosiyaları nəzarətdə saxlamaq üsuluna çevrilir.

Körpənizi silkələmək və ona aktiv qulluq etmək onun mənəvi inkişafı üçün faydalı olsa da, körpələrin ağlama ehtiyacını aradan qaldırmaq üçün bu stimullardan istifadə etməməyə diqqət edin. Çünki yanlış vaxtlarda verilən hərəkət stimulları onun ağlama ehtiyacını boğmasına səbəb olur.

## Hisslərini ifadə etməyə kömək edin

Uşağın hiperaktiv olması, valideynlərin uğursuz valideynlik etməsi demək deyil. Bununla belə, valideynlər uşaqları hansı duyğulardan asılı olmayaraq (gülmək, ağlamaq, qəzəblənmək kimi) özlərini ifadə etməyə təşviq etmək, mümkün hiperaktivlik, diqqət çatışmazlığı, barmaq əmmə, dırnaq yemə simptomlarını azalda bilər. Unutmayın ki, duyğularınızı mümkün olan ən saf formada ifadə etmək gərginliyi azaldan sağlam bir sərbəst buraxılma mexanizmidir.

## Səbirli olun, peşəkar dəstək alın

Uşaqların illər ərzində qazandıqları bu vərdişdən əl çəkib təbii müalicə mexanizmini işə salmaq nə uşaqlar, nə də valideynlər üçün asan deyil. Valideynlər övladına "İndi ağlaya bilərsən, səni əsəbiləşdirən sözləri deyə bilərsən" dedikdə, uşağın bunu qəbul etməsi və dərhal açılması çətin ola bilər. Uşağın ağlaması üçün valideynin onu anlayacağı, dəstəkləyəcəyi, yanında olub sakitləşəcəyinə inam hissi inkişaf etdirməlidir. Bunun üçün insan səbirli olmalıdır. Bu prosesdə mütəxəssislərdən dəstək almaq işinizi asanlaşdıracaq.

***Ayşən Vəli***

# Vətənlə qoşa çəkilir adın

Qarabağ müharibəsinə ölkəmizin hər yerindən oğullar yollandı. Onlarla naxçıvanlı vətənpərvər hərbçi gənc də Vətən torpaqlarını işğaldan azad edənlərdəndir. Naxçıvan da Qarabağ uğrunda onlarla övladını şəhid verdi. 44 gün davam edən II Qarabağ Müharibəsi zamanı iki ay Naxçıvan tamamilə blokada şəraitində yaşamaq məcburiyyətində qaldı. İki ay bu torpağın Azərbaycanla, paytaxt Bakı ilə heç bir əlaqəsi olmadı. 44 gündə isə naxçıvanlıların tək ümidi olan təyyarələr yalnız Naxçıvana şəhid gətirəndə göründü göy üzündə. Naxçıvan şəhid övladlarına qollarını açanda, onları bağrına basanda göründü təyyarələr. Bu təyyarələr əsrlərə qəhrəmanlıq tarixini yazan Naxçıvan şəhərinə, igidlər oylağı Şərura, vətənpərvərlik mücəssəməsi Ordubada, Babək qeyrətli Babəkə, qəhrəmanlar yurdu Kəngərliyə, Əlincə qeyrətli Culfaya, yenilməzlik abidəsi Sədərəyə, hünəri uca dağlarının şiş zirvələrindən alan Şahbuza gətirirdi şəhidlərimizi. Vətən müharibəsinə mərd oğul kimi gedib, qəhrəman kimi qayıdan balalarımızı. Bu qədim diyarın özünün də, insanlarının da qürur duyduğu, fəxr etdiyi övladları...






Onlardan biri-Azərbaycan Ordusunun əsgəri, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Şuşa və Laçının azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə döyüşən, oktyabrın 27-də Laçın döyüşləri zamanı şəhid olan Lətif Əliyev haqqında söhbət açmaq istəyirəm. Bu gün doğum gününü əzizlərinin qeyd etdiyi, gözəl xatirələrlə andığı şəhid Lətif Əliyev.

Üç il öncə Lətif Əliyevin cənazəsinin Naxçıvana, oradan isə Şərura gətirildiyi günü yaxşı xatırlayıram. 44 günün biri-noyabrın 2-i idi. Yenə də şəhidimiz gəlirdi təyyarədə. Endi birazdan Naxçıvana... Qarşıladı bu diyar öz əzizlərini, yola saldı onları şəhərlərə, qəsəbə və kəndlərə. Bu yollardan biri də Şərura gedirdi. Həmin gün 3 şəhidi vardı Şərurun. Bu ulu yurd qollarını açıb şəhidini gözləyirdi. Qəribə bir mənzərə canlanırdı gözlər önündə: yaşıllıqlar məkanı Şərurda payızın bir günün içində saçları necə də ağarmışdı. Bəlkə saçlarını yolub yollara tökən ağacların görüntüsü idi bu? Çılpaqlığın bəyazlığı... Şəhidini-əzizini qarşılayırdı yollar da, ağaclar da, yarpaqlar da, ətrafdakı hər şey... Hüzn içində, yox, həm də qürur içində idi Şərur.

Lətifini, Əlisini, Muradını qarşılayırdı. Bu yurdun igid övladlarını, hər biri bir ailənin göz nuru, ürək döyüntüsü olan övladlarını. Yox, tək ailələrin deyil, onlar bütün Naxçıvanın, Azərbaycanın qüruru, canı, ürəyi, qürurudular. Birazdan torpağa tapşırıldı Vətən övladları, Şərur rayonunun şəhidlər xiyabanında. Üç şəhid-üç bayraqdır, üç yüksəlişdir, üç torpaqdır, kənddir, el-obadır...

Babasının adını daşıyan Lətifin əmiləri İlqar, İntiqam, bibiləri Qiymət, Sədaqət, Səidə bu gün tək qardaşlarının balasını deyil, sanki bu gün yenidən öz atalarını da itirmişdilər. Torpağa iki qəhrəmanı, iki şəhidi gömmüşdülər. Onların hər ikisinin adı Lətif idi... Xanlıqların Lətifləri... Biri torpağın zəhmət insanı, biri torpağın şəhid övladı... Biri illərlə torpağın altını üstünə çevirib zəhmət əlləri ilə ailəsini dolandıran Lətif, digəri isə babasından torpağa məhəbbəti əxz edən nəvə Lətif, şəhid Lətif. Baba Lətif zəhmətkeş, qabarlı əlləri ilə dünyadan köçmüşdü, Xanlıqlarda bir zəhmət abidəsi ucaltmışdı özü üçün. Nəvəsini Dədəm Qorqudun torpağa bağlı tövsiyələri ilə böyütmüşdü, torpağı əkməklə və qorumaqala bağlı tövsiyələri ilə...

Şəhid Lətif haqqında danışılanlar ürəyimi tar-mar etdi, həm də qürurlandırdı. Bu övladın 25 illik həyatı zəhmət üzərində qurulubmuş. Evlərinin dayağı, atasının sağ əli, anasının aldığı nəfəsi imiş... Özündən başqa üç qardaşından mehribanlığı, qayğıkeşliyi ilə çox fərqlənən oğul imiş... Yenicə hərbi işə düzələndən sonra ilk əmək haqqı ilə anasına paltaryuyan maşın alıb, "Ana, neçə illərdir bu böyük ailənin pal-paltarını yumaqdan əllərinin dərisi gedib, qızın da olmayıb ki, sənə kömək etsin. Ta bəsdir, qoy bundan sonra bu maşın yusun ", - deyib. Lətif illərdən bəri atasının hələ də tikib başa çatdıra bilmədiyi evi tamamlayacağını söyləyirmiş. Hələ nə qədər də işlər görmüşdü. Hamısını bibisi Lətifə lay-lay deyədeyə göstərdi mənə. Evlənənə qədər hamısını bitirmək arzusunda imiş...

***

Biz yanılırıq, Lətif o evi tikib, tamamlayıb. Lətif həyat yolu, Qarabağda şücaətli döyüşləri ilə atasının o kasıb komasının üzərində elə bir malikanə tikib ucaldıb ki, Xanlıqlarda heç kimin elə ev-eşiyi yoxdur. Bu malikanənin ən yuxarı mərtəbəsini özünə məkan seçib Lətif. Bu mərtəbənin adı Vətəndir. Seyr edir oradan Şərurunu... Oradan Qarabağ da görünür... Oradan Lətifi sevənlərin hər biri görünür. Oradan Vətən görünür. Hər kəs Azərbaycan bayraqlarını Lətif üçün dalğalandırır. "Şəhidim, səninlə qürur duyuram", - deyir. Lətif Şərurludur, Xanlıqlarlıdır- Naxçıvanlıdır, Naxçıvan şəhididir, lakin ümumilikdə Lətif bütöv Azərbaycanlıdır. Şəhid olduğu həmin gündən etibarən Lətif Azərbaycan bayrağıdır... Ağlama, Şərur, ağlama Xanlıqlar... Ağlama ata-ana, bibi, əmi, xala. Azərbaycan bayrağına bax, övladın oradan sənə baxır...

Əzizinəm igid Lətif,
Baba Lətif, nəvə Lətif.
Qarabağ dastanında
Hər söz-söhbəti lətif.

Lətif Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən isə "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Lətif Əliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə", Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ömürlər yarımçıq qalır, arzular, istəklər, gələcək Vətən torpaqlarına gömülür, lakin bunun özü elə bir xoşbəxtlik deyilmi? Vətən yolunda kim canını, varını əsirgəyər ki?.. Bu oğullar tarixdir... Bu oğullar namusdur, ana-bacılarımızın ismətidirlər... Atasız uşaqların harayıdırlar. Minlərlə soydaşımızın heyfini alanlardırlar. Ən əsası isə gələcəyə aparacağımız, nəsillərə təhvil verəcəyimiz torpaqlarımızın alın açıqlığı, qürur yeridirlər.

44 gündə Naxçıvan dəfələrlə şəhidini qarşıladı, basdı bağrına, qucaqladı, lay-lay dedi... Biz bir toylarda görmüşük o qədər maşınları, o qədər siqnalları, bir də övladlarımızı son mənzilə yola salanda gördük. Bu qədər gülü-çiçəyi toylarımızda görmüşdük, bir də şəhidlər keçən yollarda gördük. Bu qədər insanı da toylarımızda görmüşdük, bir də şəhid cənazələrinin arxasında gördük. Biz bəy xonçalarını yenə də toylarda görmüşdük, məzar üstündə də gördük. Biz anaları oğul toyunda qol qaldırıb oynayanda görmüşdük, "Ay camaat, gəlin, oğlumun toyudur", - deyib cənazə qarşısında oynayanda da gördük. Bəlkə bu da yeni bir toyumuz-düyünümüzdür. Qoy olsun, yeni toyumuz-düyünümüz olsun bunlar. Lakin bir qarış torpağımız da ermənidə qalmasın. Torpaq namusdur, qoy namusumuz tapdalanmasın. Torpaq ululuqdur, qoy ululuqdan enməyək. Torpaq əvvəlimiz və axırımızdır, qoy axırımız əvvəlimizdən utanmasın. Torpaq mənəm, sənsən, bizik, hamımızıq, qoy ölək, son nəfərimizədək, lakin biz varıqsa, Vətən torpaqları da tam olsun...

Bu gün Lətifin doğum günündür, 29 yaşı tamam olur. Bu gün həmişə olduğu kimi, onun əziz xatirəsi anılır, məzarı ziyarət olunur. Analar, qadınlar ağlayar, bu, bəllidir. Lakin bu gün yenə də Lətifin atasının, əmilərinin, qardaşlarının gözündən axan yaş, tez-tez silib gizlətdikləri yaş həm "kişilər ağlamaz", həm də sevinc göz yaşları anlamına gəlir. Çünki bu göz yaşlarında Suqovuşanı görürük, Xudafərinlə həmdərd olan Arazı görürük... Bu yaşlarda Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın, Kəlbəcərin, Laçının sevincini görürük. Onların əllərindəki bayraq bu gün həm də Qarabağ torpaqlarında dalğalanır. Ətrafı rənglərinə boyayır. Yaşıl rəng erməni tapdağından bozlaşmış yurdları yaşıl çəmənə çevirir, qırmızı Günəş olub, dağların arxasından boylanıb 30 il doğmadığı yerlərə gülümsəyir, mavi Qarabağın başı üzərindəki səmanı aydınladır... Bir anda gözlərim önündə Şərurun Şəhidlər Xiyabanı Murovun zirvəsinə qalxır. Oradan şəhidlərim bizi haraylayır, "Ağlamayın, bizimlə qürur duyun, Vətən torpaqlarını yağıdan almışıq", - deyirlər...

Ruhun şad olsun, Lətif! Ruruhunuz şad olsun, şəhidlər! Siz bizim qürurumuz, başımızın tacısınız. Bizi yenidən Qarabağlı edənlərsiniz. Qarabağın qara bəxtini ağ edənlərsiniz. Nə qədər ki, Azərbaycan var, sizin adınız Vətənlə, torpaqla, bu xalqın namusu, qeyrəti, iffəti ilə qoşa çəkiləcəkdir.

***Mətanət Məmmədova***

# Ukrayna rus casuslarını ələ keçirib

***Ukraynanın kəşfiyyat xidməti dünən Rusiyanın casus şəbəkəsini ortaya çıxarıb və əməliyyatlarda iştirak edən 9 nəfərin həbs edildiyini açıqlayıb. Rusiya kəşfiyyatının Ukraynanın altı bölgəsində Telegram saytı vasitəsilə agentlər işə götürdüyü də müəyyən edilib. Bu şəxslərin kritik infrastruktur və hərbi hədəflər barədə məlumat ötürəcəkləri bildirilir.***

Kəşfiyyat xidməti bu casuslara qarşı hər hansı tədbir görməzdən əvvəl bir müddət onları izləyib. Həbs edilənlər arasında Odessa vilayətinin Dnepr və Yujin bələdəiyyələrinin iki məmuru da var. Belə ki, bu şəxslər Kremlyönlü söhbət platformalarında "şərhçi" kimi aktiv olduqları üçün işə götürülüblər.

Bu hadisə, siyasi və hərbi cəhətdən analiz edilməsi lazım olan bir neçə vacib məqamını gündəmə gətirir. Bu cür əməliyyatlar Rusiyanın hərbi hədəfləri effektiv şəkildə müəyyən etmək və onlara qarşı mübarizə aparmaq üçün Ukraynanın içərisində təşkil etdiyi kəşfiyyat əməliyyatlarından sadəcə biridir. Ukraynanın son zamanlar bu əməliyyatların üstünü açması, onun kiber təhlükəsizlik yönündə inkişafını nümayiş etdirir. Ümumilikdə isə casusluq fəaliyyəti müharibənin hər iki tərəfi üçün kritik məlumat axını təmin edir.

Casusların tutulması xəbəri həm Ukrayna daxilində, həm də beynəlxalq ictimai rəydə əhəmiyyətli təsirlər göstərir. Bu cür kiçik uğurlar Ukraynanın döyüş effektivliyini və Rusiyanın xarici kəşfiyyat orqanlarının zəifliklərini üzə çıxara bilər. Bundan əlavə, bu tipli xəbərlər Ukraynanın beynəlxalq dəstək axtarışını rahatladır. Çünki ölkə Rusiya kimi supergüclərə qarşı durmaq qabiliyyətini sübut edir. Casusluq fəaliyyətinin ortaya çıxması Rusiyanın strateji zəifliklərinə işarə edir. Rusiyanın hərbi əməliyyatlarını davam etdirmək üçün kəşfiyyat məlumatları almaq ehtiyacı onun müharibədə üzləşdiyi çətinlikləri və ola bilsin ki, hərbi əməliyyatlarının effektivliyini artırmaq səylərini əks etdirir.




Bu tipli qarşılıqlı kəşfiyyat hücumları beynəlxalq ictimaiyyətin reaksiyalarına da təsir edir. Xüsusilə Qərb ölkələri və beynəlxalq təşkilatlar Ukraynanın kəşfiyyat və təhlükəsizlik sistemini dəstəkləyərək onu Rusiyaya qarşı mübarizəyə daha yaxşı hazırlaya bilərlər. Bu vəziyyət beynəlxalq münasibətlərdə Ukraynanın xeyrinə təsir edə bilər. Nəticədə Ukraynanın casusları ələ keçirməsi təkcə kəşfiyyat uğuru deyil, həm də beynəlxalq siyasi və təhlükəsizlik dinamikasına əhəmiyyətli təsir göstərən hadisədir. Bu cür hadisələr müharibənin gedişatını və onun minvalında beynəlxalq münasibətləri formalaşdıra bilər.

***Zərdüşt Quluzadə***

# Brend xəstəliyi: qlobal istehlak şəbəkəsi kimə işləyir?

***Brend məhsula simpatiya, pərəstiş son 10-15 ilin ciddi xəstəliyinə çevrilib. Qazandığı pulu son qəpiyinədək brend məhsullara xərcləyən, aldığı əşyaları, geyimləri istifadə etməyən və bu alışqanlığını ram edə bilməyənlərin sayı artır. Əgər insan brendə önəm verirsə, bu marağına rəğmən brend olmayan və bəyəndiyi hər şeyi alıb istifadə edə bilirsə, bu, normaldır. Lakin insan aludə olduğu brendləri həyat tərzinə çevirirsə və özünü brendsiz təsəvvür edə bilmirsə, deməli, patoloji hal mövcuddur.***




İnsanların istehlak aludəçiliyi və bu proses zamanı seçimlərinin yalnız brendlərdən olması obsesif brend istifadəsi və ya brendomaniya kimi xarakterzə edilir. Bu cür insanlar aldıqları məhsulun öz standartlarını yüksəldiyini düşünərək daha bahalı və elit görünmək üçün son qəpiyədək xərcləyə bilirlər. Əvvəlcə bir maraq olan brend məhsulları almaq meyli, zaman keçdikcə brend asılılığına çevrilə bilər. İnsanların brend məhsullara üstünlük verməsində bir çox səbəblər ola bilər, amma ən başlıca səbəb kütləvi informasiya vasitələri, sosial şəbəkələrdir.

Həyatını yalnız brend məhsul istehlak etməyə həsr etmiş insanlar həm öz aludəçiliyi üçün, həm də başqalarının təqdirini qazanacağını düşündükləri üçün brend məhsullara









üstünlük verir. Bu zaman önəmli olan o məhsulun qiyməti, keyfiyyəti və istifadəyə yararlılığından çox, o markanın yaratdığı və cəmiyyətdə formalaşan imicidir. Brend istifadə etdiyi zaman o markanın yaradacağı təsir, brend məhsul ilə inteqrasiya olunaraq özünü daha dəyərli və əhəmiyyətli hiss etməsi əslində ciddi psixoloji problemdir.

Beləcə brend imicini hər şeydən üstün tutan, bütün həyatını brend əşyaları istehlaka kökləyən bir həyat tərzi yaranır. Sevdiyi brendi ala bilmirsə, özünü dəyərsiz və əhəmiyyətsiz hesab edən, kreditlə, borcla istəyinə nail olan insanların sayı çoxalır. Elə bir dövrdə yaşayırıq ki, hərtərəfli təzyiqə məruz qalırıq - mədəni, sosial, texnoloji zorakılıq əhatəsində var olmağa çalışırıq. Eləcə də yeniyetmə və gənclər orta hesabla gündə 7 saat informasiya hücumuna məruz qalır. Bu da o deməkdir ki, fikri, düşüncəsi yeni formalaşan insanlar qlobal istehlak şəbəkəsi tərəfindən ciddi formada hədəfə alınır. Gənclər arasında formalaşan sosial qruplar onların kimliyini müəyyənləşdirir. Brend geyinməyənlər sıxışdırılır, alış-veriş etdiyi mağazaları öz şəxsiyyət vəsiqəsinə çevirən gənclərin sayı artır. Brend asılılığı olan həmyaşıdları tərəfindən hörmət görmək, rəğbət qazanmaq istəyən gənclər bu qlobal istehlak iqtisadiyyatı üçün ciddi bazardır.

Kredit kartları ilə hər şeyin asanlıqla alına bildiyi bir mühitdə reklam strategiyası əhəmiyyətli rol oynayır. Bu cür reklamlarla insanlara kredit kartından istifadə edərək limitsiz istehlakın mümkün olduğu mesajları ötürülür. Davamlı olaraq bu cür reklam yağışına tutulan gənclər özünü marka, brend xəstəliyinə yoluxmuş olmağından xəbərsiz olur, bunu bildirənlərə qarşı aqressiv olur. Xüsusilə mənəvi boşluqda olan, ailəvi problemləri olan insanlar içindəki boşluq hissini aradan qaldırmağa brend məhsullara meylliliklə çalışır. Bonuslarla, hədiyyə məbləğlərlə alış-verişi cəlbedici edən qlobal istehlak şəbəkəsi özünə daha çox qurban toplamaqla bu cür insanların sayını artırır.

Təbii ki, brendlərin keyfiyyətini inkar etmək olmaz, lakin 20 manat dəyərində olan pambıq köynəyin brend adı ilə 2000 manata satılması istehlakçını avam yerinə qoymaqdan başqa bir şey deyil. Biz brend asılısı olduğumuz zaman məhsulun həqiqi dəyərinə görə deyil, üstünə yazılmış ada görə ödəniş edirik. Bizi cəlb edən məhsulun keyfiyyəti yox, bahalı alış-verişin verdiyi həzdir. Bahalı alış-veriş həvəsi, bütün sektorlarda brendlərə aludə olmaq fərdi və ya ailə büdcəsini məhv edə bilər.

Ailə, bizim həyatımızda biz hələ doğulmazdan əvvəl başlayan və ömrümüzün sonuna qədər təsirini qoruyan bir qurumdur. Bizim şəxsiyyətimizi iqtisadi, mədəni, mənəvi, sosial və fizioloji təsirləri ilə öz ailəmiz formalaşdırır. Ailə insanın mənəvi inkişafında ən mühüm mühit və sosial institutdur desək, yanılmarıq. Uşağın özünü tanıması, şəxsiyyətini təsdiq etməsi, cəmiyyətə adaptasiyası üçün valideyn münasibəti çox önəmlidir. Demokratik, tolerant abu-havası olan evlərdə uşaqlar müstəqil qərarlar qəbul edən sosial fərdlər kimi böyüyürlər, həmyaşıdları arasında sözlərinin çəkisi olur, rəğbət görürlər. Belə uşaqlar cəmiyyətə faydalı fərd kimi formalaşırlar, çünki ailədə özünə hörmət və qayğı görüb, sevgi ilə böyüyüb. Ailəsində sevgi böyüyən bir uşaq xoşbəxt və məmnun olmaq üçün əlavə yollar axtarmır, özünü dəyərli hesab etmək üçün bahalı məhsul almağa, brend geyinməyə ehtiyacı olmur.

Ailə ilə ziddiyyətli münasibətlər nəticəsində uşaqlar valideynlərini cəzalandırmaq üçün onları maddi olaraq yükləmək istəyir, onlardan görə bilmədiyi qayğını bahalı əşya aldıraraq görmək istəyir.

Bu gün bizi özümüzə qapanmağa məcbur edən, meyilimizi alış-verişə, brend məhsullara salmağa vadar edən ən ciddi problem ünsiyyətsizlikdir. Biz demək olar ki heç kimlə görüşmürük, daha dəqiq desək, real görüşmürük. Həyatımızı virtual yaşayırıq, həmişə kiməsə nəsə sübut etməyə çalışırıq, brend geyimlə çəkdirdiyimiz şəkilləri paylaşıb təqdir, rəğbət gözləyirik. Brendlər bizə, bizi yaxşı hiss etdirmək üçün məhsul satmır, öz bazarını genişlətmək, daha çox adamı tora salmaq, daha yaxşı qazana bilmək üçün satır. Biz maya dəyəri 10 manat olan bir əşyaya 100 manat verəndə mənəvi rahatlanırıqsa deməli səhhətimizlə bağlı ciddi problemimiz var. Əgər bütün enerjimizi hansısa məhsulu satın ala bilmək üçün sərf ediriksə, məhsulun bizə xidmət etməsi yerinə, biz onu almaq üçün brend mağazalara xidmət ediriksə, deməli öz həyatımızı yaşamaq yerinə brend və markaların bizə təlqin etdiyi həyatı yaşayırıq - endirim güdməklə, kredit kartını faizlərə bölməklə, əynimizdəki brend geyim ilə özümüzü təsdiq etməyə çalışmaqla.

***Lalə Mehralı***

XIV YAZI

# İtirdiyimiz xüsusiyyətlər: qeyrət

Dünyanın müxtəlif dillərində "qeyrət" anlayışını araşdırdım bir müddət əvvəl, əksəriyyətində bu söz cəhd etmək, səy göstərmək, nəyisə əldə etmək üçün motivasiya kimi anlaşılır. Bizdə də bu söz iki mənada işlədilib, həm səy-cəhd mənasında, həm də şərəf, ləyaqət, heysiyyətin qorunması mənasında. Amma biz daha çox ikinci mənada bilirik bu sözü.

Bu silsiləyə başlayanda qeyd dəftərimdə təxminən 10 mövzu yazmışdım, itirdiyimiz, unutduğumuz xüsusiyyətlər ilə bağlı. Amma artıq 14-cü məqaləni yazıram və yazdıqca itirdiklərimizin, əslində, nə qədər çox olduğunu, hələ çox yazacağımı anladım. Qeyrət mövzusunu da çoxdan yazmaq istəyirdim, lakin hər şeydən alovlanan, yazılan hər mövzuda bir alt məna axtaran cəmiyyətin reaksiyası məni bir az əl saxlamağa vadar etdi. Amma bir neçə gün öncə sosial şəbəkədə rastlaşdığım video görüntüdən sonra "yazacağam" dedim.

O görüntüdə əynində polis geyimi olan bir kişi və onu telefonun kamerası ilə çəkən bir başqa kişi vardı. O kişilər bir qadın haqqında danışırdılar. Birinin həyat yoldaşı, o birinin isə münasibətdə olduğu iddia edilən bir qadın idi ortaq mövzuları. Polis önündəki çörəyi qırıb tökür, duza, Çərəkəyə (!) and içirdi ki, onu video-qeydə alan kişinin arvadı ilə yataq münasibəti olmayıb. Onun bu









andını rahatlıqla dinləyən kişi isə adi bir şey imiş kimi çəkiliş etdi. Nə məqsədlə çəkdi, niyə qeyd etdi, bilmirəm, amma onların havadan-sudan danışırmış kimi birinin arvadı, o birinin sevgilisi olduğu iddia edilən qadın haqqında belə rahatlıqla danışması məni dəhşətə saldı. Qeyrət o qədər qeyb olub ki, ər bunu sosial şəbəkədə də yayıb.

Nə vaxt qeyb etdik biz o qeyrəti? Var idi, itirdik, yoxsa elə bineyi-qədimdən qəhət olub, biz şişirdib böyütmüşük? Axı bütün bədii ədəbiyyat, folklorumuz, elə nənə-babalarımızın söz boğçası da həmişə qeyrət haqqında yazılanlarla, deyilənlərlə zəngin olub, bu qədər şişirtmə olar? Qız-gəlinin yanında düşmənçiliyi unudan, ayaqlar altına atılan örpəyə görə qan davasını bitirən, hamilə gəlinini düşməninə etibar edən kişilərdən törəyənlər 1 əsrin içində niyə bu qədər dəyişdi?




**HAŞİYƏ:**

Qaçaq Kərəm köhnə dostu, sonralar qan düşməni olduğu İsrafil ağa ilə haqq-hesabı çürütmək üçün onun yatdığı alaçığa girir. Bu, düşmənini öldürmək üçün əlinə düşən qiymətli fürsət idi. Amma Kərəm alaçıqdan onu öldürmədən çıxır. Səhər İsrafil ağa ayılan zaman əli soyuq bir şeyə toxunur. Hövlnak yerindən sıçrayır, yataqda iki ədəd güllə görür. O anlayır ki, gecə qan düşməni onu öldürə bilərdi, amma arvadının yanında yatdığı üçün canını bağışlayıb. Bu, bir kişinin başqa bir kişinin qeyrətinə - həyat yoldaşına etdiyi hörmət və kişilik xüsusiyyəti idi.

Kərəm bir dəfə də kazaklardan qaçmaq üçün şəhər pristavı Abbas bəyin evinə sığınır, o Abbas bəy ki, onu tutmaq üçün dərədən-qabıqdan çıxıb, dağda-bayırda onu qovalamaqla keçib ömrü. Amma evinə pənah gətirən Kərəmi kazaklara vermir, kişilik qeyrəti vəzifə borcunun, Kərəmin başına qoyulan mükafatın önünə keçir.

Əslində, bu kimi hadisələr çox olub bizim tariximizdə. "Kişi sözü" yazımda bunun bir nümunəsini də Kərbəlayı İsmayıl və Usuboğlunun timsalında vermişdim. Maraqlananlar o yazını da oxuya bilərlər. Kərəmlərdən, nəbilərdən, isgəndərlərdən, molla zallardan sonra o körpülərin altından çox su axdı, o süfrələrdə çox çörək kəsildi, o eşiklərdən çox kişi keçdi, amma kişilik məktəbində çox adam sinifdə qaldı. Sinifdə qalmış o kişilər indi televiziyalarda evdən qaçmış arvadını axtarır, verilişlərə çıxıb azyaşlı övladlarını, ərini atıb evli olduğu halda başqa kişi ilə qaçan arvadına yalvarır. Təsəvvür edirsiniz? O kişilər xəyanət üstündə yaxaladığı arvadının video-görüntülərini efirdə nümayiş etdirir, o kişilər sonra elə o qadınlar ilə ailə olur, qolboyun gəzir. Qeyrət sözü sinifdə qalır, yerində sayır, sonra da itir, yox olur. Lüğətimizdən də çıxarılsa, təəccüblənmərik yəqin ki.

Qeyrət tək kişilərin alnına yapışmayıb, qadının qeyrətsizi də N qədərdir. Adını yenilik, müasirlik qoyduğumuz qeyrətsizlik bizdən nələri aldı, əvəzində nə verdi, bir düşünün. Sosial şəbəkələrdəki rüsvayçılığı bir düşünün, kamera qarşısında ombasını oynadıb müqabilində pul alanları, sinəsini açıb hədiyyə qazananları düşünün. Arxası ilə toy tutanları, qadına çevrilib fenomen olanları, cinsiyyəti şübhəli instaqram məşhurlarını düşünün. Vətənin qeyrətini çəkənlər cəbhədə şəhid olanda, para şaqqasını səngərdə qoyub qayıdanda buradakı qeyrətsizlər kişili-qadınlı hamısı pul qazanma hayında idi. Nə vətən təəssübü çəkirlər, nə ailə şərəfi düşünürlər, nə də heysiyyətini qoruyurlar, onlar üçün əhəmiyyətli deyil qeyrət.

Çox az müddət ərzində qeyri-normal olan bütün davranışlar adi hala çevrildi, fərqindəsinizmi? Yatdıq, oyandıq, dünya dəyişdi sanki. Baxın, elə bu yazını oxuyanlar arasında "işi-gücü qurtarıb, yazdığı mövzuya bax", - deyə tənə edənlər, rişxənd edənlər olacaq. Bəziləri üçün qeyrət adicə 6 hərfli sözdür çünki. Bəziləri heç narahat da deyil bu vəziyyətdən, çünki yeri rahatdır, əyini qalın, altı isti, qarını toxdur. Necə deyir Qabil?

Ağ biləklər, gül əllər  
Tarlada qabar.  
Bir qeyrətsiz yekəpər  
Qızılgül satar.  
Qeyrətsiz oluruq biz,  
Səhv düşəndə yerimiz.

Ürək ağrısı ilə müşahidə edirəm, başlar necə ayaq oldu, ayaqlar baş? Necə mahiyyətini itirdi hər şey? Zamanla ədəbsizlik müasirlik oldu, qeyrətsizlik yenilik oldu, sədaqətsizlik sərbəstlik oldu, fahişəlik azadlıq oldu. Biz hər şey olduq, hər yeniliyi qəbul etdik, hər bulaqdan su içdik, amma bir şeyi anlamadıq ki, qeyrətsizliklə müasirliyin arasındakı o divar yıxılanda altında qalan çox olacaq. Sizcə də ölkədəki mövcud vəziyyət bunu demirmi?

Bu qədər qeyrətsizin fonunda, bu qədər çətinliyə rəğmən qeyrət anlayışını həyatından silməyən, hər addımında vətənin, cəmiyyətin qeyrətini uca tutan bütün insanlara ehtiramla...

***Lalə Mehralı***

# İşxan Verdyan: “İrəvanda yeni konstitusiya üzərində gizli iş aparılır”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*




**Erməni bloger, fəal və ictimai xadim İşxan Verdyan Caliber.Az-a müsahibəsində Ermənistanda Azərbaycanla sülh razılaşmasına hazırlaşmaq üçün hansı işlər aparıldığından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- İrəvanda regionda sülhə nail olmaq üçün həyati əhəmiyyət kəsb edən ölkə konstitusiyasına dəyişiklik etmək əvəzinə, nədənsə məktəb təhsilində islahatlar aparmaq qərarına gəliblər. Niyə Ermənistanda öz tarixlərini yenidən yazırlar?***

- Aydın olmayan bir şey deyəcəyəm, amma Ermənistanda konstitusiya dəyişikliklərinə hazırlıq tam sürətlə gedir. Mən bilavasitə gələcək konstitusiyanın mətni üzərində işləyən komandanın tərkibində olan, o mənada qanunların özlərində deyil, onların ədəbi formalaşdırılması üzərində işləyən şəxslə dolayısı ilə tanış olduğum üçün yaxşı məlumatlıyam. Onun verdiyi təminatlardan, ümumiyyətlə, onun iş yükündən çıxış edərək belə qənaətə gəlirəm ki, yeni Əsas Qanun üzərində işlər artıq sürətlə gedir.

Problem ondadır ki, bu proses reklam olunmur. Bu gün Ermənistanda revanşist müxalifət resurslarla zəngin olmaqda davam edir və ölkənin əsas mediası hələ də onların nəzarətindədir. Bu media artıq məsələyə münasibət bildirib və münasibət belədir: Nikol Paşinyan konstitusiyaya əl alsa, İlham Əliyevin iradəsini həyata keçirəcək. Mən bunun absurd olduğunu bilirəm, amma insanlar bu absurdluğa həvəslə inanırlar.

Təəssüf ki, analitik təfəkkür qabiliyyəti Ermənistan Respublikası icmasının kollektiv şüurunda tamamilə yoxdur, ona görə də insanlar kütləvi informasiya vasitələrindən gələn bu məlumatı həqiqət kimi qəbul edir və onlar da öz növbəsində öz gündəmlərini təbliğ edirlər. Ona görə də Ermənistanda bu total savadsızlığı aradan qaldırmaq üçün təhsil sistemində dəyişikliklər edilir. Ermənistanın tarixin yenidən yazılması ilə bağlı bəyanat mübahisəlidir, amma konstitusiyaya gəlincə, o, sakitcə dəyişir. Bunlar Ermənistanın indiki reallıqlarıdır: hakimiyyət bir dəstə qeyri-adekvat quldurdan qorxur və öz planları barədə açıq danışa bilmir. Azərbaycan "Artsax" infeksiyasını təmizlədi, lakin bu Ermənistandan daha da yoluxdu və bu çürükdən qurtulmaq üçün vaxt lazımdır.

***- Əgər Ermənistanda, qeyd etdiyiniz kimi, konstitusiyaya yenidən baxılması məsələsini qaldırıblarsa, bu, artıq ümidvericidir. Belə olan halda, sizin hesablamalarınıza görə, Bakı ilə İrəvan arasında hansı müddət ərzində sülh müqaviləsi imzalana bilər?***

- Şübhəsiz ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması yalnız Ermənistan Konstitusiyasına dəyişiklik edildikdən sonra mümkün olacaq. Amma burada başqa bir şeyə diqqət yetirmək lazımdır: ölkələr sülh müqaviləsi imzalamadan da birgə yaşaya və diplomatik münasibətlər qura bilərlər- Rusiya və Yaponiya bunu mükəmməl nümayiş etdirir. Yəni, Ermənistanda konstitusiya dəyişdirilənə qədər ölkələrin oturub 2 il gözləməsi deyil, hansısa qarşılıqlı məqbul məntiqlə hərəkət edib münasibətləri inkişaf etdirməsi ehtimalı var ki, bu da sülh müqaviləsinin imzalanması ilə yekunlaşacaq. Ermənistan öz daxili qanunvericiliyini qaydasına salır.

***- Erməni politologiya ictimaiyyətində belə bir fikir var ki, ölkə inamla növbəti postsovet anti-Rusiyasına çevrilir və bu, sonda Ermənistanın özünə baha başa gələ bilər. Bu barədə nə düşünürsünüz?***




- Bu yaxınlarda mənim də iştirak etdiyim məşhur erməni jurnalistin yazısının altındakı şərhlərdə bu mövzu ilə bağlı kiçik bir müzakirə oldu və Azərbaycanın politologiya ictimaiyyətinin bəzi hörmətli üzvləri tərəfindən baxıldı. Nəticə etibarı ilə belə qənaətə gəldik ki, Ermənistanda sadəcə olaraq belə bir politologiya icması yoxdur. Bu, politologiya ictimaiyyəti deyil, bir dəstə rəzil lobbiçidir və onların fikirlərinin baş nazir Paşinyanın elan etdiyi kursla- Ermənistanın rayonlaşdırılması ilə heç bir əlaqəsi yoxdur. Ona görə də onların Ermənistanın hara getməli olduğu ilə bağlı fikirlərini şərh etməyi vaxt itkisi hesab edirəm. Onlar öz gündəmlərini həyata keçirirlər və bəli, heç biri nəinki Azərbaycandan olan ekspertlə, hətta sadə vətəndaşlarla belə debat apara bilmir.



***- Sizcə, İrəvanla Vaşinqton arasında strateji əməkdaşlığın gücləndirilməsi Ermənistanın yaxın gələcəkdə KTMT-dən çıxması ehtimalını sürətləndirəcəkmi?***

- Düşünürəm ki, baş nazir Paşinyan vəziyyəti o həddə çatdırıb ki, KTMT-dən çıxmaq artıq sırf texniki məsələyə çevrilib. Ermənistan KTMT-də işləməkdən imtina edib, təşkilatın fəaliyyətində və onun maliyyələşdirilməsində iştirak etmir. Üstəlik, nədənsə əminəm ki, Rusiya KTMT-dən rəsmən hərbi yardım tələb edəndə belə Ermənistan heç bir reaksiya verməyəcək, ona görə də hesab edirəm ki, KTMT-dən çıxıb-çıxmamaq Ermənistan rəhbərliyinin siyasi məqsədəuyğunluğu məsələsidir. Amma ümumilikdə götürdükdə Ermənistan üçün KTMT faktiki olaraq mövcud deyil, necə ki, ATƏT-in Minsk Qrupu əslində Azərbaycan üçün mövcud deyil.

***- ABŞ-ın Ermənistandakı hərbi mövcudluğunun genişləndirilməsi ümumilikdə İrəvana nə vəd edir?***

- Yəqin ki, siz mənə dünyada Amerika ordusunun olduğu bir ölkəni göstərə bilməyəcəksiniz ki, bu, o dövlət üçün yaxşı bir şeyə gətirib çıxarsın. Amerika okeanın o tayındadır və o, Ermənistan üçün ABŞ-ın nöqteyi-nəzərindən geosiyasi əhəmiyyətinə görə ondan fərqlənməyən və hətta əksinə- ABŞ-a açıq-aydın ermənilərin ağlayan gözlərindən daha çox şey təklif edə biləcək ölkələrə qarşı müharibəyə getməyəcək. Daim kənar köməyə ehtiyacı olan köməksiz qurban kompleksi hökumətdən təcili həllini tələb edən başqa bir ictimai miqyaslı problemdir.

***- Ermənistanda hələ də davam edən revanşist istəklər fonunda bu payızda müxalifətin yeni etiraz dalğası başlaya bilərmi?***

- Daşnak müxalifətindən həmişə etiraz hərəkatları gözlənilə bilər və gözlənilməlidir, çünki əks halda onların liderləri qaçılmaz həbsxana, ideologiyası isə epik çöküşlə üzləşəcək. Onlar üçün bu, siyasi mübarizə deyil, həyat və azadlıq uğrunda mübarizədir və bu döyüşdə bütün vasitələr yaxşıdır. Ona görə də, mənim təvazökar fikrimcə, Robert Köçəryan və həmkarları dəmir barmaqlıqlar arxasında olana qədər ölkədə etiraz aksiyaları planlaşdırıldığı kimi, çimərlik mövsümü və digər bayramlarda təbii ki, fasilələrlə baş tutacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
16 avqust
2024-cü il

# Mülki işdə ödənişsiz vəkil ilə təmin oluna bilərikmi?



VƏKİL AÇIQLADI



"Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 14.5-ci maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilmiş hallarda, vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxs maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi üçün dövlət hesabına peşəkar hüquqi yardım almaq hüququna malikdir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Turan Abdullazadə sözlərinə belə davam edib: "Həmin Məcəllənin 67-1-ci maddəsinə əsasən, bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətləri ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə dövlət hesabına vəkilin prosesdə iştirakını təmin edir. Məhkəmə iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğunu nəzərə alaraq, aşağıdakı şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir:

1) orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;

2) insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;

3) valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar;

4) ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

5) müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;

6) maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

Bu maddədə nəzərdə tutulmuş şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan 15 gün müddətində, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə təxirə salınmadan baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardaddan bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər. Məhkəmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə ödənilmiş vəsaitin iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq əleyhinə məhkəmə qərarı çıxarılmış digər şəxsdən tutularaq dövlət büdcəsinə ödənilməsini iş üzrə yekun qərarında qət edə bilər".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Enerji içkisinin fəsadları: Məktəblinin üzü əyildi



***Uralda (Rusiya) həkimlər iki banka enerji içkisi içdikdən sonra insultqabağı vəziyyətdə olan 12 yaşlı uşağı xilas ediblər. Qeyd olunub ki, uşaq bir neçə gecə yata bilməyib, sonra onda şiddətli başağrısı başlayıb, sifəti əyilib, bədəninin yarısı keyiyib. Ona insultqabağı vəziyyət diaqnozu qoyulub.***

Həkimlər qeyd ediblər ki, valideynlərinin ayıq-sayıqlığı sayəsində uşağa vaxtında köməklik göstərmək mümkün olub. Şagird artıq evə qayıdıb və ailəsinə bir daha enerji içkiləri içməyəcəyinə söz verib. Həkimlər bildiriblər ki, uşaqların sinir sistemi hələ belə içkiləri içmək üçün kifayət qədər güclü deyil, ona görə də onların təsiri gözlənilməz ola bilər.//Oxu.Az

## ŞOK: Bu virus dünyada sürətlə yayılır



Meymunçiçəyi virusunun yeni variantı 13 ölkədə sürətlə yayılıb. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının məlumatında bildirilib. Qeyd olunub ki, 14 min yoluxma və 524 ölüm halı qeydə alınıb. ÜST virusun qarşısının alınması üçün təcili olaraq beynəlxalq müdaxilənin lazım olduğunu bəyan edib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700